QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 027 (5747) **9 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır

*İlham Əliyev: "Bütün qəzalı evlər, qısa müddət ərzində, ya bərpa ediləcək, ya da yenidən tikiləcək"*



Səh 2

3

"Freedom House" təşkilatının hesabatı qərəzlidir və məqsədlidir



11

Qondarma soyqırımı günü elanı Makronu ifşa etdi



5

"Bu günün gənci Vətənə sadiq və mübarizdir"



# Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır

*İlham Əliyev: "Bütün qəzalı evlər, qısa müddət ərzində, ya bərpa ediləcək, ya da yenidən tikiləcək"*

**Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələbinə uyğun siyasi islahatlar, icra edilən iqtisadi proqram və sərncamlar ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib. Azərbaycan öz daxili siyasətində insan amilinə prioritet istiqamət verməklə həm iqtisadi, həm sosial və həm də siyasi proseslərdə önəmli mövqe qazanıb. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir.**



Bu, demək olar ki, müasir Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda, ilk olaraq, məhz insanları düşünür. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu göstərir. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun



firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək iqtidarındadır. Dövlətimizin gücünü, qüdrətini hər bir Azərbaycan vətəndaşı duyur, dərk edir və bu, onlar üçün qürurvericidir. Hər bir Azərbaycan vətəndaşı ölkənin sosial-iqtisadi inkişafının dinamik xarakter aldığını, hər yerdə genişmiqyaslı quruculuq-abadlıq işlərinin aparıldığının şahidi olurlar. Çoxlu sayda sosial obyektlər istifadəyə verilir, yol infrastrukturu yenilənir, zavodlar, fabriklər tikilir, iş yerləri açılır, maaş və müavinətlər dəfələrlə artıb, ən əsası, əhalinin yaşayış səviyyəsi durmadan yaxşılaşır. Bu, Cənab Prezidentin uğurlu daxili siyasətinin məntiqidir.

Bildiyimiz kimi, bu günlərdə Şamaxı, Ağsu və İsmayıllı rayonlarında zəlzələ baş vermişdir. Təbii ki, təbii fəlakətlərin qarşısını almaq mümkün deyildir. Daşqın, sel, zəlzələ kimi təbii fəlakətlər gözlənilməndir. Zəlzələr nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında onlarla fərdi yaşayış evi qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərə ziyan dəymişdir. Təbii fəlakətdən dərhal sonra, görülən təxirəsalınmaz tədbirlər nəticəsində, adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilmiş, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilmişdir. Zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması istiqamətində hazırda zəruri tədbirlər görülür.

Əlbəttə ki, dövlətin öz vətəndaşının yanında olması bütün çətinliklərin aradan qaldırılmasında önəmlidir. İqtisadi cəhətdən güclü dövlət olan Azərbaycan dəymiş ziyanı asanlıqla aradan qaldıracaq. Prezident İlham Əliyev çıxışlarını birində vurğuladığı kimi, "...heç bir təbii fəlakət bizi sarsıda bilməz. Azərbaycan dövləti güclü dövlətdir".

Baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması üçün dövlət tərəfindən bütün zəruri tədbirlərin görülməsi istiqamətində ciddi addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyev baş vermiş zəlzələnin fəsadlarının araşdırılması və aradan qaldırılması ilə bağlı tapşırıqlar verib. Dövlətimizin başçısının tapşırığına əsasən, aidiyyəti qurumların rəhbərləri zəlzələdən zərər çəkən vətəndaşlarla görüşüb və yeraltı təkanların fəsadları ilə tanış olublar. Sakinlərə vaxtında kömək göstərilib və lazımi yerlərdə yerləşdirilmələrinə şərait yaradılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, vəziyyət tam nəzarətə götürülüb. Zəlzələ baş vermiş ərazinin vəziyyətinin qiymətləndirilməsi və nəticələrinin aradan qaldırılması üçün dərhal bölgədə aidiyyəti dövlət qurumlarının nümayəndələri olmuşdur. Mütəxəssislər ziyan dəymiş binaların dayanıqlığını və vəziyyətini araşdırırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin zəlzələdən əziyyət çəkən sakinlərlə görüşü öz vətəndaşının yanında istənilən zaman olduğunu bir daha təsdiqləyir. Zəlzələ nəticəsində zərərçəkən vətəndaşlar dövlətimizin başçısının diqqət və qayğısını bir daha görmüş oldular. Dövlət başçısının hər bir vətəndaşın çətin anında yanında olmasından insanlar şərəf duyur və xalqımızı xoşbəxt gələcəyə aparan Lider ətrafında daha da sıx birləşiblər. Eyni zamanda, təbii fəlakət nəticəsində, evlərini tərk etməyə məcbur qalan vətəndaşlarla daim əlaqədə olaraq, onların qayğılarının aradan qaldırılması istiqamətində işlər aparılacaq.

Dövlət başçısı zəlzələdən zərər çəkən tikililərə baxıb və sakinlərlə səmimi söhbət aparıb. Bu addım dövlət başçısının hər zaman dar və ağır məqamlarda xalqın yanında olduğunu təsdiqləyib. Rayon sakininin "...həmişə xalqının ağır günündə onun yanında olan, xalqına dəstək olan Prezidentin bu təbii fəlakət zamanı şamaxılıların yanında olacağına çox-çox inanırdıq", - fikrini ifadə etməsi, qazanılan etibar və inamın təzahürüdür: "Nə yaxşı ki, varsınız. Xalqa göstərdiyiniz dəstəyə, köməyə görə, Sizə həmişə minnətdarıq, "Çox sağ olun!" deyirik. Nə yaxşı ki, bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik. Həmişə Sizin yanınızdayıq. Həmişə Sizə inanırıq. Azərbaycanın gələcəyinin etibarlı əldə olduğuna inanırıq və biz bunu görürük. Bu gün bir daha bunun sübutudur".

Şamaxı şəhərinin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus 33 nömrəli ikimərtəbəli, beşotaqlı evin iki otağı tamamilə dağılıb, ev qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyev evin vəziyyəti ilə tanış olub və "Biz evləri bərpa edəcəyik, yenidən tikəcəyik, müvafiq göstəriş verilmişdir", - deyərək zərərçəkən sakinlərin bütün müraciətlərinin nəzərə alındığını, evlərə baxış keçirildiyini diqqətə çatdırıb: "Harada ki, bərpa etmək mümkündür, bərpa olunacaq. Harada ki, mümkün deyil, yeni ev tikiləcək". Evin ağbirçəyinə hörmət və həssaslıqla yanaşan dövlət başçısı bu addımı ilə ahıl insanlara olan münasibətini bir daha nümayiş etdirib.

Bildiyimiz kimi, Cənab Prezident Şamaxıda dəfələrlə olmuş infrastruktur layihələrinin, sosial obyektlərin, kənd təsərrüfatı obyektlərinin açılışlarında iştirak etmişdir. "Şamaxının inkişafı daim diqqət mərkəzindədir"-deyən dövlət başçısı bildirib ki, təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə, sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum: "Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər, qısa müddət ərzində, ya bərpa ediləcək, ya da yenidən tikiləcək.Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar. Eyni zamanda, tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. İndi yüzlərlə müraciət var. Mənə verilən məlumata görə, hələ ki, 70-dən çox müraciətə baxılıb və müvafiq aktlar tərtib edilib. Bu aktlar əsasında bütün təmir-bərpa işləri aparılacaq. Vətəndaşlar narahat olmasınlar. Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır".

Şamaxı sakini dövlət tərəfindən göstərilən dəstəyə görə, minnətdarlığını ifadə edib: "Sağ olun ki, varsınız. Biz Sizə arxalanırıq. Xalqı bu qədər sevirsiniz. Sağ olun ki, xalqa bu qədər dəstəksiniz. Dəstəyinizə görə minnətdarıq. Sizinlə qürur duyuruq. Prezidentimizin belə qayğıkeşliyi, xalqa xidməti ilə çox qürur duyuruq. Azərbaycan etibarlı əllərdədir".

Prezident İlham Əliyevin sakinlərə mən də sizinlə qürur duyuram ki, hətta belə ağır günlərdə nikbinliklə yaşayırsınız və inanırsınız ki, Azərbaycan dövləti, Azərbaycan hakimiyyəti həmişə sizin arxanızdadır" - deyərək bildirib ki, bütün dövrlərdə belə olub, bundan sonra da belə olacaq: "Həm könüllülərin, həm yerli icra orqanlarının, Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının - bunların bir amalı var: vətəndaşlara kömək etmək. Mən hesab edirəm ki, bərpa işləri tezliklə başlamalıdır".

Bildiyimiz kimi, bir neçə il bundan əvvəl, Zaqatala və Qax rayonlarında zəlzələ oldu, orada minlərlə ev dağılmışdı. Dövlət başçısının göstərişi ilə həmin zəlzələnin fəsadları aradan qaldırıldı. Bütün təbii fəaləkətlər Azərbaycan Prezidentin tapşırıqları ilə aradan qaldırılmışdır. Cənab İlham Əliyev bildirib bir neçə il bundan əvvəl, daşqın olmuşdu və minlərlə evi su basmışdı: "Orada da lazımi tədbirlər görülmüşdü. Bütün evlər dövlət vəsaiti hesabına yenidən tikildi, bərpa edildi. Ona görə biz bu zəlzələnin fəsadlarını da tezliklə aradan qaldıracağıq. Mən gəlmişəm bunu sizə şəxsən deyim ki, vətəndaşlar tam əmin olsunlar, bütün lazımi işlər görüləcək".

Cənab Prezident Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını təmin etmək məqsədilə baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, ilkin olaraq, 2,0 (iki) milyon manat ayrılıb.

Onu da bildirək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondunun könüllüləri də bu işdə yaxından iştirak edəcəklər. Qəzalı vəziyyətdə olan evlərin sakinləri başqa evlərdə müvəqqəti yerləşdiriləcək. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri zəlzələdən zərər çəkmiş ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq, sakinlərin müraciətlərini qeydə alıblar. Mehriban xanım Əliyevanın tapşırığı əsasında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında zərərçəkmiş sakinlərlə görüşən RİİB nümayəndələri zəlzələ nəticəsində yaranan problemlərin həllində qarşıdakı günlərdə də dövlət qurumları ilə birlikdə sıx işləyərək sakinlərin məskunlaşması və rahatlıqlarının, qısa zamanda, təmin edilməsinə səy göstərəcək.

***Zümrüd BAYRAMOVA***

## Rəsmi xronika

Prezident İlham Əliyev İsmayıllı rayonunun Muğanlı-İsmayıllı (30 km)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında Fərman imzalayıb.

# "Freedom House" təşkilatının hesabatı qərəzlidir və məqsədlidir

***"Freedom House" təşkilatı növbəti hesabatını dərc edib. Həmin hesabat siyahısında son dövrlər Azərbaycanda aparılan uğurlu siyasi-iqtisadi islahatlar, beynəlxalq layihələrdə dövlətimizin donor və təşəbbüskar rolu nəzərə alınmayıb. İnsan hüquq və azadlıqlarının qorunması, fikir plüralizmi ilə bağlı keçdiyi yola işıq salınmayıb. Nəticədə adıçəkilən təşkilat hesabatında növbəti dəfə ölkəmiz əsassız qərəzlə üzləşib.***



SİA-nın verdiyi məlumata görə, məsələyə münasibət bildirən Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov hafta.az-a açıqlamasında deyib ki, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra "Freedom House", "Human Rights Watch", "Sərhədsiz reportyorlar", "Soros" fondu, Amerika Birləşmiş Ştatlarının müəyyən qeyri-hökumət təşkilatları, Avropadakı bəzi deputatlar ölkəmizə sırf qərəzlə yanaşıblar: "Bunun da iki qütbü və səbəbi var. Birincisi, bunların idarə heyətlərində erməni lobbisi tərəfindən təmsil olunanlar və oradan maliyyələşənlər, ikincisi, Azərbaycanın siyasi, iqtisadi uğurlarını həzm edə bilməyən qüvvələr mövcuddur. Yəni, bu qüvvələr Azərbaycanda iqtisadi inkişafı görürlər. Görürlər ki, ölkəmizdə siyasi problemlər həll olunur. Baxırlar ki, burada yeni iş yerləri açılır. Azərbaycanda olan ictimai-siyasi sabitliyi, xalq-iqtidar birliyini müşahidə edirlər. Eyni zamanda, Azərbaycan Prezidentinin xalqın maraqlarını ən yüksək səviyyədə təmsil etdiyinin şahidi olurlar. İstər Davos Forumunda, istərsə də başqa-başqa forumlarda, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə ölkə başçısı Azərbaycanı layiqincə təmsil edir. Ölkəmizdə multikulturalizm, tolerantlıq, dinlərarası münasibətlərin çox yüksək səviyyədə olduğunu görürlər. O boyda Fransa, paytaxtı Paris od tutub yanır, bir kəlmə bu haqda söz açmırlar. İnsanların dırnaqlarını çıxarırlar. Yaralayırlar. Mindən artıq insan həbs olunub. Sərbəst toplaşmaq azadlıqlarını yerinə yetirdiklərinə görə dəmir barmaqlıqlar arasına salınıblar".

Komitə sədri bildirib ki, Avropada öz hüquqlarının müdafiəsinə qalxdıqları üçün insanlar rezin güllələrə tuş gəlir: "Onlara qarşı boğucu qazdan istifadə olunur. Su şırnaqları ilə sadə insanlara qarşı zorakılıqlar tətbiq olunur. Bütün bunlara baxmayaraq, yuxarıda adları çəkilən təşkilatlar Avropadakı, Amerikadakı həmin özbaşınalıqlarla bağlı hər hansı bəyanat vermir. Hesabat hazırlamır".

Siyavuş Novruzov qeyd edib ki, bu yaxınlarda Ermənistanda müxalif siyasi partiyalardan birinin müavini həbsxanada aclıqdan və işgəncədən dünyasını dəyişdi: "Hazırda nə qədər insan istintaqsız məsuliyyətə cəlb olunub. Onlara işgəncələr verilir. Lakin "Freedom House" kimi təşkilatlar bu faktlarla bağlı indiyə qədər hər hansı hesabatı beynəlxalq ictimaiyyətə təqdim etməyib. Buraya onlarla başqa-başqa ölkələrin adlarını da daxil etmək olar. Onların heç biri Ermənistanda baş verənlərə hər hansı bir münasibət bildirməyib. Nə Avropa Şurası, nə ATƏT-in Parlament Assambleyası, nə də Avropa Parlamenti Ermənistanda, eləcə də Qərb ölkələrində-ki insan hüquq və azadlıqlarının pozulması hallarına qarşı heç bir münasibət sərgiləməyib. Amma Azərbaycanda bir nəfərə bir söz deyən kimi bunların hamısı bəyanat verirlər. Qərar qəbul edirlər. Özü də bu bəyanatlar ədalətsiz, heç bir həqiqətə uyğun olmayan, əsassız bəyanatlardır. Hələ məhkəmə olmadan, hər hansı hüquqi qərar qəbul edilmədən bunlar istintaqın gedişinə təsir və təzyiq göstərməyə çalışırlar. O baxımdan da bunlar qərəzlidirlər. Həmin təşkilatlar neçə illərdir ki, ölkəmizə bu cür təzyiqlər göstərməyə çalışırlar. Amma biz onların heç birini hesabat saymırıq. Çünki onların hər hansı Azərbaycan insanı ilə bağlı qərar qəbul etmək fikri yoxdur. Heç onların hüquqlarını müdafiə etmək niyyətlərində də deyillər. Onların yeganə məqsədi Azərbaycana bu cür yollarla təzyiq göstərməklə ölkəmizin təbii sərvətlərindən bu və ya digər formada güzəştli şəkildə istifadə etmək, öz maraqlarını həyata keçirməkdir. Vəssəlam".

Millət vəkili bildirib ki, əgər bunlar insan haqlarının və hüquqlarının müdafiəçisidirsə, bir milyondan artıq insanın hüququ pozulub. Qaçqınlarımız var. Bütün hüquqlardan məhrum ediliblər. Onların hüquqlarının müdafiəsinə qalxsınlar: "Onlar öz ata-baba yurdlarından didərgin salınıblar. Yerli özünüidarə orqanlarında seçmək, seçilmək hüququndan məhrum ediliblər. Ermənilərin ərazilərimizin beşdə birini işğal etməsi nəticəsində məcburi köçkünlərimiz mülkiyyət hüquqlarından məhrum ediliblər. Mənəvi hüquqlardan məhrum olunublar. Valideynlərinin məzarlarını ziyarət edə bilmirlər. Xocalı kimi soyqırım törədilib. İndiyə kimi bunlarla bağlı bir kəlmə də olsun fikir səsləndirməyiblər. Ortada faktlar, məhkəmə qərarları var. Hətta "Çıraqov qardaşlarının işi" Avropa məhkəməsinə çıxarıldı. 200 min insan Ermənistandan didərgin salındı. Əmlakları əlindən alındı. "Freedom House", "Human Rights Watch" kimi təşkilatlar insan hüquq və azadlıqlarının müdafiəçisidirsə, bunlara da münasibət bildirsinlər. Guya peşə faliyyəti ilə bağlı həbslər baş verib. Hansı peşə fəaliyyəti ilə məşğul olmasından asılı olmayaraq hər kəsin hüququ qanun qarşısında bərabərdir. Bu istər Avropada, istər Amerikada, istərsə də Azərbaycanda belədir, qanunu pozursansa, qanunun aliliyi tətbiq olunur. Azərbaycanda da qanunu pozanlar məhkəmə qərarı ilə cinayət məsuliyyətinə cəlb edilib. Əgər kiminsə şikayəti varsa, Apelyasiya məhkəməsinə, Ali məhkəməyə, Konstitusiya məhkəməsinə müraciət edə bilər. Vətəndaşın birbaşa müraciət etmək hüququ var. Əgər orada verilən qərarla qane olmursa, Avropa Məhkəməsinə müraciət edə bilər. Heç bir hüquqi prosedur qəbul edilmədən bu kimi təşkilatlar qərar qəbul edirlər. Bu baxımdan həmin təşkilatların məsələyə bu cür yanaşmaları qərəzlidir və məqsədlidir".

# Heydər Əliyev Fondu meyxana ustasının müalicəsini öz üzərinə götürdü

HEYDƏR ƏLİYEV FONDU

Heydər Əliyev Fondu meyxana ustası Ağa Kərim Novruzovun müalicəsi ilə bağlı xərcləri öz üzərinə götürüb. SİA-nın məlumatına görə, ailəsi maddi vəziyyəti ilə əlaqədar Ağa Kərimin müalicəsinin yarımçıq qaldığını açıqlamışdı. Bununla əlaqədar Heydər Əliyev Fondu meyxana ustasının səhhəti ilə bağlı vəziyyəti araşdıraraq ona dəstək göstəriləcəyini bildirib.

# "Radikal müxalifət inkarçı və qərəzli mövqedən çıxış edərək gündəmdə qalmaq istəyirlər"



***"Son zamanlar antimilli destruktiv qüvvələrin aktivləşməklə möhkəm özüllər üzərində təməli qoyulan ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönəlmiş hərəkətlərinin, icazəli mitinq keçirmək adı ilə vətəndaşların istirahət hüquqlarını, həmçinin Ümumxalq hüzn günündə şəhidlərimizin ruhuna hörmətsizlik edərək ictimai asayişi kobud şəkildə pozmaq cəhdlərinin, sosial şəbəkələr üzərindən etdikləri təhqir və böhtanlarının, ekstremist çağırışlarının qarşısı polis orqanları tərəfindən qətiyyətlə alınmışdır". SİA-nın verdiyi məlumata görə, bunu Azərbaycan Respublikasının Baş Prokurorluğunda keçirilən geniş kollegiya iclasında Baş prokuror Zakir Qaralov deyib.***

Baş prokuror diqqətə çatdırıb ki, xalqın dəstəyindən məhrum olan, nüfuzunu, sosial dayaqlarını tamamilə itirmiş, ölkəmizdə İslam dövləti yaratmaq xəyalında olan radikal-terrorçu qüvvələrlə işbirliyi qurmuş, ermənipərəst xarici dairələr tərəfindən idarə olunmaqla qanunsuz maliyyələşən AXCP və digər radikal müxalifət partiyaların ənənəvi inkarçı və qərəzli mövqedən çıxış edərək varlıqlarını sübut etmək naminə diqqəti özlərinə cəlb etməklə gündəmdə qalmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə çalışırlar: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafı, xalqımızın rifah halının günü-gündən yaxşılaşması, xalq-iqtidar birliyinin sarsılmazlığından məyus və narahat olan, dövlətçiliyimizə qənim kəsilən, hakimiyyətə yiyələnmək üçün istənilən yola baş vurmağa, təxribatlar törətməyə hazır olan bu insanlar öz fəaliyyətlərini dağıdıcılıq planları üzərində quraraq ictimai-siyasi vəziyyəti süni şəkildə gərginləşdirməyə çalışmaları qeyd edilməklə, antimilli müxalifət düşərgəsinin təmsilçiləri və onların xaricdəki havadarlarının xalqımızı yenidən daxili çəkişmələrə, parçalanmaya və böhrana sürükləməklə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısının bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacağı vurğulanmışdır".

# Əbülfəs Qarayev: "Geniş islahatlar aparılacaq, ancaq insanların öz işlərini itirməsindən söhbət gedə bilməz"



Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 yanvar 2019-cu il tarixli Fərmanına uyğun olaraq bu sahədə geniş islahatlar aparılacaq. AZƏRTAC xəbər verir ki, bu fikirləri mədəniyyət naziri Əbülfəs Qarayev Tovuz şəhərində vətəndaşların qəbulundan sonra mətbuata açıqlamasında deyib.

Bildirib ki, aparılacaq islahatlarda, ilk növbədə, insan faktoru diqqətdə saxlanılacaq. "İnsanların öz işlərini itirməsi, kimlərinsə işdən azad olunmasından söhbət gedə bilməz. Aparılan islahatlar mədəniyyət sahəsində işlərin təkmilləşdirilməsinə, müasir texnologiyaların tətbiqinə, ümumilikdə, işin səviyyəsinin yüksəldilməsinə xidmət edir", - deyə nazir qeyd edib.

# Prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlər həyata keçirib



***Fevralın 7-də Azərbaycan Respublikası Baş Prokurorluğunda mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı Şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2018-ci ildə görülmüş işlərin vəziyyətinə və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş kollegiya iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən baş prokuror Zakir Qaralov 2018-ci ildə dünyada mövcud siyasi, iqtisadi və maliyyə böhranlarına baxmayaraq, ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlətçilik siyasəti və səriştəli idarəetmə qabiliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunduğunu, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlərin yeni müstəviyə qaldırıldığını diqqətə çatdırıb.

Uğurla yola saldığımız 2018-ci ilin mühüm əhəmiyyətə malik olan ictimai-siyasi tədbirin - növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin xalqla dövlətin vəhdətinin və birliyinin əyani təsdiqi və bariz nümunəsi olmasını diqqətə çatdıran baş prokuror demokratik prinsiplərə və beynəlxalq standartlara uyğun olaraq keçirilmiş seçkidə xalqımızın yekdilliklə ölkədə mövcud əmin-amanlığın və həyata keçirilən sosial-iqtisadi siyasətin davamlılığına, xalqın rifahının və gələcəyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının sistemli və ardıcıl şəkildə qorunmasına səs verdiyini qeyd edib.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş qeyd olunması, regionda sabitliyə, xalqlarımızın firavanlığına, Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək Cənub Qaz Dəhlizinin, onun tərkib hissəsi olan TANAP layihəsinin, həmçinin Türkiyənin İzmir şəhərində inşa edilmiş STAR neft emalı zavodunun istifadəyə verilməsi, ölkəmizin qlobal nəqliyyat-logistika qovşağına çevrilməsi istiqamətində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı, üçüncü peykimizin orbitə çıxarılması ilə əlaqədar Azərbaycanın kosmik sənaye ölkələri arasında mövqeyini daha da möhkəmləndirməsi, ölkəmizin mötəbər beynəlxalq tədbirlərə və idman yarışlarına ev sahibliyi etməsi dünyada Azərbaycanın geostrateji mövqeyini daha da gücləndirməkdədir.

Xüsusi vurğulanıb ki, əldə olunan uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olub. Ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında Mehriban xanım Əliyevanın gördüyü mötəbər işlər və həyata keçirdiyi layihələr xalqımız tərəfindən dəstəklənməklə hər zaman yüksək qiymətləndirilib.

Ötən il dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü xarici siyasət tədbirləri davam etdirilməklə yanaşı, Milli Ordunun gücləndirilməsi, müasir ordu quruculuğu məqsədlərinə xidmət edən zəruri infrastrukturların yaradılması istiqamətində böyük işlər görülüb. Silahlı Qüvvələrimizin təmas xəttində ərazilərimizin bir hissəsini erməni qəsbkarlarından azad etməsi, vətəndaşlarımızın düşmən təhdidlərindən qorunması üçün həyata keçirilmiş uğurlu Naxçıvan (Günnüt) əməliyyatı nəticəsində 11 min hektara yaxın ərazinin işğaldan azad olunması və strateji xarakter daşıyan yüksəkliklərin ələ keçirilməklə ordumuza Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmə imkanı yaratması xüsusi vurğulanıb.

Baş prokuror diqqətə çatdırıb ki, son zamanlar antimilli destruktiv qüvvələrin fəallaşmaqla möhkəm özüllər üzərində təməli qoyulan ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönəlmiş hərəkətlərinin, icazəli mitinq keçirmək adı ilə vətəndaşların istirahət hüquqlarını, həmçinin Ümumxalq Hüzn Günündə şəhidlərimizin ruhuna hörmətsizlik edərək ictimai asayişi kobud şəkildə pozmaq cəhdlərinin, sosial şəbəkələr üzərindən etdikləri təhqir və böhtanlarının, ekstremist çağırışlarının qarşısı polis orqanları tərəfindən qətiyyətlə alınıb.

Xalqın dəstəyindən məhrum olan, nüfuzunu, sosial dayaqlarını tamamilə itirmiş, ölkəmizdə İslam dövləti yaratmaq xəyalında olan radikal-terrorçu qüvvələrlə işbirliyi quran, ermənipərəst xarici dairələr tərəfindən idarə olunmaqla qanunsuz maliyyələşən AXCP və digər radikal müxalifət partiyaların ənənəvi inkarçı və qərəzli mövqedən çıxış edərək varlıqlarını sübut etmək naminə diqqəti özlərinə cəlb etməklə gündəmdə qalmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə çalışmaları diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafı, xalqımızın rifah halının gündən-günə yaxşılaşması, xalq-iqtidar birliyinin sarsılmazlığından məyus və narahat olan, dövlətçiliyimizə qənim kəsilən, hakimiyyətə yiyələnmək üçün istənilən yola baş vurmağa, təxribatlar törətməyə hazır olan bu insanlar öz fəaliyyətlərini dağıdıcılıq planları üzərində quraraq ictimai-siyasi vəziyyəti süni şəkildə gərginləşdirməyə çalışmaları qeyd edilib. Həmçinin antimilli müxalifət düşərgəsinin təmsilçiləri və onların xaricdəki havadarlarının xalqımızı yenidən daxili çəkişmələrə, parçalanmaya və böhrana sürükləməklə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısının bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacağı vurğulanıb.

Hesabat məruzəsində qeyd edilib ki, 2018-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu olub. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində daxili işlər və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin həyata keçirilməsi təmin olunub. Hesabat dövründə prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə dövlətimizin başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmasına neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilib.

Xüsusi vurğulanıb ki, vətəndaşları narahat edən məsələlərin həllinə diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Prezidenti İlham Əliyevin tələbi rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılıb, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilib.

Vətəndaş müraciətləri üzrə natamam və qeyri-obyektiv yoxlamalar aparılması, süründürməçilik hallarına yol verilməsi, əsassız qərarlar qəbul edilməsi, vətəndaşlara müraciətləri üzrə formal və səthi cavabların verilməsi, qəbulların keçirilməsi qaydalarının pozulması kimi çatışmazlıqların hələ də mövcud olduğu nəzərə alınmaqla, bütün struktur qurumların rəhbərləri və tabe prokurorlardan "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" əmrin qeyd-şərtsiz icrası, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin daha da təkmilləşdirilməsi, bu sahədə bütün neqativ halların təxirəsalınmadan aradan qaldırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi tələb olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, baş prokurorun müavini-respublika hərbi prokuroru Xanlar Vəliyev, baş prokurorun müavini-Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Bakı şəhər prokuroru İlqar Abbasov, Gəncə şəhər prokuroru Fazil Həsənəliyev və Xocalı rayon prokuroru Kamran Məmmədovun çıxışlarında 2018-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar verilməklə, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, işin müasir məzmunda təkmilləşdirilməsi və mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürülüb.

Kollegiya iclasına yekun vuran baş prokuror Zakir Qaralov prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcək.

## Türkiyəli professor: "Freedom House" kimi təşkilatlar fəaliyyətlərini korrupsiya üzərində qurublar



Fransa Prezidentinin saxta "erməni soyqırımı günü" ilə bağlı açıqlaması və "Freedom House" təşkilatının Azərbaycana qarşı qərəzli mövqeyi eyni məqsədə xidmət edən kampaniyanın tərkib hissəsidir.

Bu fikri AZƏRTAC-a müsahibəsində türkiyəli professor İbrahim Öztek bildirib. "Ədalətin meyarı həqiqətdir. Birinci Dünya müharibəsi dövründə erməniləri silahlandırıb Osmanlı dövlətinə qarşı qaldıran qüvvələr yüz ildir ki, saxta "erməni soyqırımı" mövzusu ilə Türkiyəni məşğul etməyə çalışırlar. Kimə həqiqət lazımdırsa Xocalı soyqırımını tanısın, sonra başqa məsələləri müzakirə edə bilərik. Fransadakı erməni diaspor təşkilatlarının oyuncağına çevrilən siyasətçilər yaxşı bilirlər ki, XX əsrin sonunda işğalçı Ermənistan Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan edib. Bir milyon azərbaycanlı məcburi köçkün kimi bütün hüquqlardan məhrum olub. Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır", - professor qeyd edib. O, "Freedom House" təşkilatının Azərbaycana qarşı qərəzli mövqeyinə də kəskin etiraz etdiyini bildirib. Əlavə edib ki, bu cür təşkilatlar fəaliyyətlərini korrupsiya üzərində qurublar. Professor deyib: "Fransada siyasi böhran tüğyan edir. Dünənə qədər Azərbaycanı və Türkiyəni mitinq iştirakçıları ilə sərt davranmaqda ittiham edirdilər. İndi Fransada nümayişləri yatırmaq üçün ən qəddar üsullara əl atırlar. "Freedom House" təşkilatının fəaliyyəti də eynilə belədir. Bu və onun kimi digər təşkilatlar heç vaxt yerləşdikləri ölkədəki acınacaqlı vəziyyətdən bəhs edə bilməzlər. Çünki onları təsis edəndə qarşılarına missiya qoyublar: qarayaxma apar, ləkələ, böhtan at... "Freedom House" təşkilatının indiki açıqlaması da bu prosesin davamıdır".

# "Bu günün gənci Vətənə sadiq və mübarizdir"



*"Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar". Bunu SİA-ya SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib. SƏS Media Qrupun rəhbərinin sözlərinə görə, dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib: "Gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi dövlət-gənclər siyasətinin əsasında dayanır.*

Aparılan dövlət-gənclər siyasətinin nəticəsidir ki, onlar bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur, cəmiyyətin inkişafına öz töhfələrini verirlər".

Qurum rəsmisi bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, gənclərimizin uğurları təkcə ölkə daxilində deyil, xarici məkanda da diqqətdədir: "Ölkəmizdə gənclərinin sağlam ruhda inkişaf etməsi məqsədilə bölgələrimizdə idman mərkəzləri, olimpiya kompleksləri, gənclər evləri və müxtəlif dərnəklər açılır, onların asudə vaxtlarının səmərəli şəkildə keçməsi üçün lazımi infrastruktur yaradılır".

Baş redaktor onu da bildirib ki, bu günün gənci Vətənə sadiq və mübarizdir: "Biz bunun Aprel döyüşlərində də bir daha şahidi olduq. Belə ki, həmin vaxt Azərbaycan gəncliyi Ali Baş Komandanın bir əmri ilə torpaqlarımızı azad etməyə hazır olduğunu əməli ilə sübut etdi. Bu isə Liderə ehtiramın və inamın əlamətidir".

Bəhruz Quliyev deyib ki, gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər onlar üçün yaradılan şəraitin təzahürüdür: "Bu gün gənclərlə bağlı kifayət qədər normativ sənədlər mövcuddur. Cənab İlham Əliyevin gənclərə etimadı, onlarla görüşlərin təşkili bu diqqətin göstəricisidir. Məlum dövlət proqramları, həyata keçirilən layihələr gənclərin fəallığına stimul verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin amalında Azərbaycan gənclərini ölkənin uğurlu inkişafına istiqamətləndirə biləcək potensialın yaradılması dayanır. Cənab Prezidentin gənclərlə görüşü və gənclərin qarşısında konkret vəzifələr qoyması Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu bir daha təsdiqləyir. Azərbaycanın gənclər ordusu da dövlət başçısının etimadını əməli ilə doğrultmalı, öz bilik və bacarıqlarını genişləndirməli, müasir dövrün tələblərinə uyğun olaraq, formalaşıb, ölkəmizin inkişafına töhfə verməlidir".

# Əfqanıstan Prezidenti mart ayında Bakıya gələcək



Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin Azərbaycana səfəri gözlənilir. Dövlət başçısı VII Qlobal Bakı Forumunda iştirak edəcək. Bu barədə AZƏRTAC-a Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən məlumat verilib. Qeyd edək ki, Forumda dünyanın 70-dən çox ölkəsindən 450 qonağın iştirakı gözlənilir. VII Qlobal Bakı Forumunun mövzusu "Dünyanın yeni xarici siyasəti" olacaq. Tədbirə bir sıra ölkələrin hazırkı dövlət və hökumət başçıları da qatılacaq.

# AİI-nin bir illik fəaliyyəti ilə bağlı tədbir keçirilib

***Azərbaycan İlahiyyat İnstitutunun (AİI) 8 fevral 2019-cu il tarixdə birillik fəaliyyətinə həsr edilmiş tədbir təşkil olunub. SİA-nın verdiyi məlumata görə, institutun birilliyinə həsr olunmuş tədbirdə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev, millət vəkilləri, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri, dini icmaların rəhbərləri və digər məsul şəxslər iştirak ediblər.***






Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan mərasimdə AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq,AİI-nin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradıldığını, İnstitutun yaradılmasında məqsədin Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək olduğunu bildirib.

Azərbaycanda nümunəvi dövlət-din münasibətləri haqqında bəhs edən C.Məmmədov ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasətin hazırda onun layiqli varisi cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Birinci vitse-prezident xanım Mehriban Əliyeva və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O bildirib ki, AİI-nin yaradılması dövlət-din münasibətlərinə, milli-mənəvi dəyərlərə qayğının ən böyük göstəricilərindən biridir.

AİI rektoru ötən bir il ərzində İnstitutun gördüyü işlər, həyata keçirdiyi fəaliyyət istiqamətləri, həmçinin hədəfləri haqqında məlumat verib: "Azərbaycan İlahiyyat İnstitutun fəaliyyətə başladıqdan sonra, qısa vaxt ərzində İnstitutun formalaşması istiqamətində zəruri tədbirlər həyata keçirilib, ali təhsil müəssisəsi tədris ilinə hazırlıq səviyyəsinə gətirilib. İnstitutun Dinşünaslıq və İslamşünaslıq ixtisasları üzrə təhsil standartları Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edilmiş və Nazirliyin müvafiq şöbəsindən müsbət rəy alınmışdır. Azərbaycan İlahiyyat İnstitutunda hazırda bir fakültə, 3 kafedra mövcuddur".

Rektor qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutunun qarşısına bir sıra məqsəd və hədəflər qoyulub. Əsas məqsədlərdən biri müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsidir: "Belə mütəxəssislər yetişdirmək üçün bir çox layihə həyata keçirir, diskussiyalar, yarışlar, konfranslar, təlimlər təşkil edirik. İşimizdə dünya və qonşu ölkələrin təcrübələrindən bəhrələnirik. İstəyirik ki, tələbələrimiz - gələcəyin ilahiyyatçıları savadlı, kamil mütəxəssislər olmaqla yanaşı, həmçinin səlis nitq qabiliyyətinə malik olsunlar".

DQİDK sədri cənab Mübariz Qurbanlı İnstitutun birillik fəaliyyətini yüksək qiymətləndirib. O bildirib ki, Azərbaycanda dövlətin himayəsi altında dini təhsil verən belə bir İnstitutun yaradılmasınaehtiyac var idi: "Ümid edirəm ki, İlahiyyat İnstitutu yüksəkixtisaslı kadrların hazırlanması üçün əlverişli təhsil mühiti yaradacaq. Gənclərimizin hər hansı bir ölkəyə din təhsili almağa getməsinin qarşısı alınacaq. Dini məbədlərimiz yüksəkixtisaslı din xadimləri ilə təmin olunacaq".

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov Azərbaycanın din sahəsində uğurlu siyasət həyata keçirdiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb:"Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır. Bu gün Azərbaycandan dünyaya dini tolerantlıqla bağlı ciddi mesajlar verilir. Azərbaycanda gəncləri başqa dini cərəyanlara cəlb etmək istəyən qüvvələr vardır. Bu baxımdan,dini təhsil mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə İlahiyyat İnstitutunun üzərinə mühüm vəzifələr düşür".

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin AİI heyətinə xeyir və dualarını çatdırıb. O, İlahiyyat İnstitutunun yaradılmasını ölkəmiz üçün xeyli əhəmiyyətli hadisə kimi qiymətləndirib. F.Nurullayev, xüsusilə son illərdə dünyada gedən gərgin siyasi proseslərin bu qərarın doğru və yerində olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Bakı Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein bildirib ki, hazırda cəmiyyətimizdə dini təhsilə böyük tələbat vardır. Bu gün dini təhsil almış insanlara ehiyac olduğunu qeyd edən A. İşein İnstitutun Azərbaycanın dini həyatında xidmətləri olacaq layiqli məzunlar yetişdirəcəyini vurğulayıb.

Bakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev çıxış zamanı qeyd edib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. M.Yevdayev bildirib ki, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması ilə Azərbaycanda bu dəyərləri qoruyan və təbliğ edən din xadimləri yetişəcək.

Tədbirdə çıxış edən millət vəkili Fazil Mustafa bildirib ki, milli düşüncəyə sahib, dövlətçiliyimizə bağlı olan və kənar təsirlərdən uzaq din sahəsində mütəxəssislərə ehtiyac var idi: "İnstituta ilk qəbul prosesi də göstərdi ki, bu sahəyə insanların marağı və tələbatı vardır.Sağlam və müasir dünyagörüşlü pedaqoqların fəaliyyət göstərdiyi İnstitutun Azərbaycan cəmiyyətində dini maarifçiliyin inkişafında əhəmiyyətli rolu olacağına inanırıq."

Tədbirdə çıxış edən Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü, AİI rəhbərliyi yanında İctimai Nəzarət Şurasının sədri Əliməmməd Nuriyev istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyin keşiyində duran yüksəkixtisaslı dinşünas və islamşünas kadrlarınhazırlanması baxımından AİI-nin fəaliyyətini yüksək qiymətləndirib. Sonra Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri Nasir Əbdül Kərimi AİI-nin məqsəd və hədəflərini yüksək qiymətləndirib və instituta gələcək fəaliyyətində uğurlar arzulayıb.

Avropa Yəhudiləri İcmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian İcmasının sədriRobert Mobili, Gürcü Yəhudilərinin Bakı Dini İcmasının sədri Abik Çaruxçev tədbirdə çıxış edərək, AİI-nin yaranması və fəaliyyətinin birilliyi münasibətilə İnstitut heyətini təbrik ediblər. Natiqlər yeni təhsil müəssisəsinin quruculuğu sahəsində görülən işləri təqdir edərək, AİI rəhbərliyinin və kollektivin bu böyük məsuliyyətin öhdəsindən uğurla gələcəyinə əminliyini ifadə ediblər. Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun 1 illiyi ilə bağlı "Dəyərlərin izi ilə" sənədli filmi nümayiş olunub.

***Ceyhun Rasimoğlu***

# "Oxu!" sənədli filminin təqdimatı və dini maarifləndirmə məsələlərinə dair dəyirmi masa keçirilib



Fevralın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Oxu!" sənədli filminin təqdimatı və dini maarifləndirmə məsələlərinə dair dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev deyib ki, bu gün bir sıra ölkələrdə dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasına imkan verir. Azərbaycanın dünya üçün tolerantlıq nümunəsi olduğunu qeyd edən Ş.Hacıyev bildirib ki, bu gün dünya dövlətləri ölkəmizin multikulturalizm və tolerantlıq modelinə böyük maraq göstərir. Dövlətimiz bütün dini konfessiyalar üçün bərabər münasibət mühiti yaradır. Dünyada dini zəmində, eləcə də məzhəblərarası ədavətin qızışdırılması yolu ilə münaqişə ocaqları yaradılsa da, ölkəmizdə buna qarşı səmərəli mübarizə aparılır.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Azərbaycan bu gün güclü dövlət quruculuğu istiqamətində möhkəm dayaqlar üzərində irəliləyir və bu dayaqlardan biri, bəlkə də birincisi xalqımızın öz milli-mənəvi dəyərlərinə bağlılığıdır. Ulu öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasətinin əsasında da bu, dayanır. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir. Bütün bunlar həm də Ümummilli Liderimizin siyasətini layiqli formada davam etdirən Prezident İlham Əliyevin uğurlarının nəticəsidir.

Filmin əhəmiyyətindən danışan DQİDK-nın sədri belə maarifləndirmə vasitələrinə daha çox ehtiyac olduğunu deyib. Bildirib ki, xurafat cəmiyyətin inkişafının qarşısını alan ən böyük amildir. M.Qurbanlı Azərbaycan xalqının milli maraqlarına real və potensial təhlükə mənbəyi olan dini ekstremizmi, radikalizmi təbliğ edən cərəyanlarla mübarizə aparılmasının zəruriliyinə, gənclərin zərərli dini ideologiyaların təsiri altına düşməsinin qarşısının alınması üçün dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə diqqət çəkib.

Sonra gənclərin dini maarifləndirilməsi mövzusu və film ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu Vətənə sədaqət andı içib



Fevralın 8-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu Vətənə sədaqət andı içib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev və təntənəli tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.



Döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

Sonra gənc əsgərlər təntənəli surətdə hərbi and içiblər. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından andiçmə münasibətilə hərbi hissənin şəxsi heyətini və valideynləri təbrik edən general-polkovnik Mədət Quliyev zabit və əsgərlərə Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb. Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları və gənc əsgərlər hərbi marşın sədaları altında tribunanın önündən keçiblər.

Ulu Öndərin abidəsi önündə xatirə şəkli çəkdirilib. Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev əsgər valideynləri ilə görüşərək, onları bu əlamətdar gün münasibətilə bir daha təbrik edib. Valideynlər hərbi xidmət üçün yaradılan yüksək şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirərək, övladlarına Vətənin müdafiəsində daim ayıq-sayıq dayanmağı və dövlətə sədaqətlə xidmət etməyi tövsiyə ediblər.

General-polkovnik Mədət Quliyev hərbi hissədə xidmətin nümunəvi və səmərəli təşkili, o cümlədən hərbi-texniki və döyüş sahəsində müasir nailiyyətlərin nəticələrinin mənimsənilməsi, ümumən əsgərlərin bilik və vərdişlərinin, fiziki hazırlıqlarının daha da yüksəldilməsi istiqamətində görülən işlərlə tanış olub, tövsiyə və tapşırıqlarını verib.

Qeyd edək ki, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə görülən tədbirlər respublikanın müdafiə qabiliyyətini durmadan möhkəmləndirir, Silahlı Qüvvələrin hərbi və hərbi-texniki potensialını gücləndirir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Bütün bunlar dövlət səviyyəsində ordu quruculuğu üzrə aparılan məqsədyönlü siyasətin nəticəsidir. Ölkəmizdə gənclər arasında hərbi-vətənpərvərlik ruhu da çox yüksəkdir. Müasir Azərbaycan Ordusunda xidmətləri ilə fəxr edən gənclərimiz Vətən uğrunda canlarından belə keçməyə hazırdırlar.

# "Prezident Azərbaycan gəncliyinə çox güvənir"



***"Bu gün Azərbaycanda bütün sahələr sistemli formada inkişaf edir. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dərin köklərə malik azərbaycançılıq ideyası, fəlsəfəsi ölkənin iqtisadi və siyasi sabitliyinin qarantıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elşən Musayev deyib.***

Prezident İlham Əliyevin bütün çıxışlarının milli maraqlara yönəldiyini deyən deputat söyləyib ki, çünki milli maraqların təmin olunmadığı yerdə, müstəqilliyin, suverenliyin təhlükə altında olduğu məqamlarda heç bir zaman inkişafdan söhbət gedə bilməz: "Bizim elə ən böyük üstünlüyümüz ondadır ki, məhz milli maraqları cənab İlham Əliyev kimi ləyaqətlə qoruyan liderimiz var. Prezident İlham Əliyev gənclərlə görüşündə də özünün və xalqın çətin günlərindən, amma heç zaman ümidsiz olmamasından danışdı. Bu, gənclik üçün ruh yüksəkliyi, gələcəyə inam xarakteri daşıyırdı. Bəli, cənab Prezident Azərbaycan gəncliyinə çox güvənir, etimad göstərir. Elə təkcə Nazirlər Kabinetinin son tərkibinə baxsaq görərik ki, elmli, təhsilli gənclərə münasibət necədir".

E. Musayev qeyd edib ki, dövlət siyasətinin aparıcı xəttini bütün istedadlı gənclərin potensialını dəyərləndirmək təşkil edir: "Cənab Prezident gənclərlə görüşündə bu barədə də ətraflı və konkret danışdı. Ölkə rəhbərinin dövlət qurumlarına müraciət edərək "Gəncləri irəli çəkin" təşəbbüsü də son dərəcə təqdirəlayiq mesajdır. Deməli, gənclər öz üzərlərində işləməli, təhsillərini gücləndirməli və ölkəsinə verə biləcəkləri faydalar barədə düşünməlidirlər. Dövlət və Prezident gəncliyin yanındadır. Bu faktın özü bir gəncin arzulaya biləcəyi ən böyük xoşbəxtlikdir".

# Gənclər və idman naziri Şirvanda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov fevralın 8-də Şirvan şəhərindəki Gənclər evində Şirvan, Hacıqabul, Neftçala, Saatlı, Sabirabad, Salyan şəhər və rayonlarının sakinlərini qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə 20-dən çox sakinin iştirak etdiyi qəbulda müraciətlər əsasən gənclər, idman, tikinti sahələri və məşğulluqla bağlı olub. Böyük hissəsi idman sahəsinə aid olan müraciətlər fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təmin edilməsi, təmirə ehtiyacı olan idman obyektlərinin bərpası, Olimpiya İdman komplekslərinin, idman qurğularının tikintisi və təmiri, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələləri əhatə edib.

Gənclər sahəsində müraciətlər isə qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq tədbirlərdə iştirakı, yay-qış istirahət düşərgələrinin sayının artırılması, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti ilə bağlı olub. Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

# Bu gün gəncliyimiz milli mənəvi və dini dəyərlərimizə sadiqliyi baxımından mövcud vəziyyəti adekvat qiymətləndirməyi çox yaxşı bacarır

***-Gündüz müəllim, məlumdur ki, Azərbaycanın uğurlu inkişafına qısqanclıqla yanaşan müəyyən dairələr müxtəlif vasitələrlə ölkəmizdə sabitliyi pozmağa çalışır. Bu prosesdə milli-mənəvi dəyərlərimiz, dini sabitlik də hədəfə alınır. Belə halların qarşısının alınması üçün insanlar arasında geniş maarifləndirmə tədbirləri həyata keçirilir. Bu barədə nə deyə bilərsiniz?***



- Doğrudur, bu cür hallar var və onların qarşısının alınması istiqamətində müvafiq addımlar atılır. Bunlardan biri də cəmiyyətimizin maarifləndirilməsi işləridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində də maarifləndirmə işləri əsas yerlərdən birini tutur. Onu da qeyd edim ki, maarifləndirmə təkcə dinlə bağlı deyil. Çünki bu sahədə qarşımıza çıxan məsələlərin bir çoxu digər sahələrlə də əlaqəlidir. Bu baxımdan, insanların, o cümlədən gənclərin maarifləndirilməsi işi kompleks şəkildə həyata keçirilməlidir. Ona görə də, Dövlət Komitəsi müxtəlif qurumlarla birgə tədbirlər keçirir və həmin tədbirlər də müxtəlif mövzuları əhatə edir.

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun yap.org.az-a müsahibəsi*

Dini maarifləndiirlmə işi həm kəmiyyət, həm də keyfiyyət baxımından yeni mərhələyə keçib. Demək olar ki, bu prosesi Bakı və digər şəhərlərlə yanaşı, regionlarda kəndlərə qədər apara bilmişik. Maarifləndirmə işinin bütün respublikanı əhatə etməsi üçün də müxtəlif qurumlarla əməkdaşlıq edirik. Bu prosesə ekspertləri, ziyalıları, elm xadimlərini cəlb edirik, eləcə də, sosial şəbəkələrin imkanlarından istifadə edirik. Maarifləndirmə tədbirləri seminar, treninqlər, konfranslar, dəyirmi masalar, diskussiyalar, filmlər vasitəsilə həyata keçirilir.

Bilirsiniz ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu maarifləndirmə işlərində fəal rol oynayır. Fondun vasitəsilə bir neçə film çəkmişik ki, bu filmlər kifayət qədər uğurlu olub. Radikalizmə qarşı çəkilən "Şəhadət" və "Fitnə" filmləri demək olar ki, respublikanın bütün məktəblərində də nümayiş olunub. "Oxu" filmi xurafata qarşı yönəlib, "Vəhdət" filmi isə Azərbaycandakı İslam məzhəblərinin tarixən bir yerdə yaşamasının bariz nümunələrini özündə əks etdirir.

Bütün bunlarla yanaşı, maarifləndirmə işlərində çap materiallarının hazırlanması da vacib yer tutur. Komitəmizin mətbuorqanları olan "Dövlət və din" ictimai fikir toplusu və "Cəmiyyət və din" qəzeti pulsuz şəkildə yayılır. Bütövlükdə, çap olunan dini ədəbiyyatın ümumi tirajı bəlkə də 100 mindən artıqdır. Təkcə 100-ə yaxın adda kitablar nəşr olunur.

Əsas fəaliyyət istiqamətlərindən biri də sosial şəbəkələr vasitəsilə maarifləndirmədir. Bu yöndə könüllü şəkildə qruplar formalaşdırılıb ki, bu qrupların səhifələri vasitəsilə maarifləndirmə işi aparırırq. Eləcə də, sosial şəbəkələrdə komitə rəhbərliyinin və əməkdaşlarının da səhifələri var.

***-Maarifləndirmə işlərinin nəticələri necədir?***

-Nəticələri ölkəmizdə dini durumun vəziyyətinə görə qiymətləndirmək olar. Əvvəlki illərlə müqayisədə dini durumun təhlili göstərir ki, bu gün cəmiyyətdə hər kəsin dini radikalizmlə bağlı məlumatı var. Ötən dövrdə cəmiyyətdə dini radikalizmlə bağlı məlumatlar yox səviyyəsində idi. Amma indi insanlar dini radikalizmin nə olduğu yaxşı bilir. Yeni biz dini radikalizmə qarşı cəmiyyətdə mənəvi imuniteti formalaşdıra bilmişik. Dini duruma gəlincə, zərərli saydığımız dini təriqətlər və cərəyanların fəaliyyəti son dövrlər zəifləyib. İstər İslamla bağlı dini radikalizm cəhdlərinin, istərsə də xristian dini yönündə missioner qrupların zərərli fəaliyyətinin qarşısı alınıb.

Hazırda bu gün üçün qarşımızda duran bir sıra hədəflər var. Əsas hədəflərdən biri milli kadrların hazırlanmasıdır. Bu, radikalizmlə mübarizədə ən effektli vasitələrdən biridir. Bilirsiniz ki, dövlət başçısının qərarı ilə Komitəmizin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Fevralın 9-da institutun yaradılmasının bir ili tamam olur. Artıq instutut tam fəaliyyətə başlayıb, ötən il tələbə qəbulu həyata keçirilib. Bu il də qəbul keçiriləcək. İnstitutun yaradılması bır sıra problemlərin həllinin açarı olacaq. Çünki gənclərimiz dini təhsil almaq üçün xaricə getməyəcək. Artıq öz ölkəmizdə buna imkan var. Xaricdə dini təhsil pulsuz idi. İlahiyyat İnstitutunda da təhsil pulsuzdur, bütün tələbələr təqaüd alır. Ehtiyacları varsa yataqxanalarla təmin olunurlar.

Eləcə də, respublikamızda müvafiq olaraq din xadimlərinə maddi dəstək göstərilir. Ötən il ərzində 1000-dən artıq din xadiminə maddi dəstək göstərilib. Bu da dini durumun sabitləşməsi baxımından önəmli amildir. Çünki din adamlarına maddi dəstək göstərilməsə başqalarının bu sahənin doldurmasına şərait yaranır. Məsələn, düşünün ki, hansısa məsciddir, orada rəsmi din xadimi fəaliyyət göstərmir. Belə olan halda, qeyri-ənənəvi, zərərli, radikal qrupların həmin məscidə meyllənməsinə şərait yaranır. Bu cür məscidlər artıq Azərbaycanda yoxdur. Ölkədə fəaliyyət göstərən bütün məscidlərdə nəzarət tam təmin olunub. Bunun bir səbəbi də Mənəvi Dəyərlərin Təbliği Fondu vasitəsilə din xadimlərinə maddi dəstəyin göstərilməsidir. Bu da cənab Prezidentin din sahəsinə, o cümlədən dindarlarımıza qayğısının bir nümunəsidir.

***- Antiazərbaycançı mərkəzlərin əsas məqsədlərindən biri də gənclərimizi milli-mənəvi dəyərlərimizdən uzaqlaşdırmaqdır. Sizcə, həmin qüvvələr məqsədlərinə nail ola bilərmi?***

-Əlbəttə ki, bütün cəmiyyətimizə xaricdəki müəyyən mərkəzlərin gerçək məqsədləri məlumdur. Bu qüvvələrin Azərbaycan gənclərini özlərinin çirkin məqsədlərinə cəlb etməsi mümkün deyil. Hesab edirəm ki, gənclərimizin milli mənəvi dəyərlərimizdən, milli maraqlarımızdan uzaqlaşdırılması yönündə atılan addımlar nəticəsiz bir cəhddir. Azərbaycan gənclərinin belə cəhdlərə adekvat reaksiyası göz önündədir. Gənclərin istər sosial şəbəkələrdə, istərsə də mənəvi dəyərlərimizlə bağlı nümayiş etdirdiyi mövqe onu deməyə əsas verir ki, bu cür cəhdlər effektsizdir. Bu gün gəncliyimiz milli mənəvi və dini dəyərlərimizə sadiqliyi baxımından mövcud vəziyyəti adekvat qiymətləndirməyi çox yaxşı bacarır.

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Hacıqabulda vətəndaşlarla görüşüb

Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə fevralın 8-də Hacıqabulda vətəndaşlarla görüşüb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə nazir Ramin Quluzadə və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoyublar.



Hacıqabulla yanaşı, Şirvan şəhər, Sabirabad və Saatlı rayonlarının sakinlərinin də iştirak etdiyi görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb. Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

# Qələmi ilə sənətini ucaldan insan

***Onun haqqında yazmaq istəyəndə, ilk ağlıma gələn, yaddaşıma yazılan məqam, bu insanın, bu dəyərli azərbaycanlı qadının sədaqəti, jurnalist kimi inanılmaz cəsarəti və öz işinə, sözün əsl mənasında, sevgi dolu sayğı və hörmətlə yanaşmasıdır. Sənət o zaman ucalır ki, sənətkar onu gördüyü işlərlə ucaldır, ona rəğbət və hörmət qazandırır.***

Neçə illərdir bu dəyərli qələm sahibini tanıyıram. Hələ 1990-cı illərdə, siyasət qazanının qır qaynayan vaxtlarında, kimin əlinin kimin cibində olmasının müəmmalı olduğu, çoxlarının öz mövqeyini ortaya qoymağa cəsarət etmədiyi bir zamanda, bu cəsur xanım Ulu Öndər Heydər Əliyev barədə obyektiv mövqe ortaya qoydu, Ulu Öndəri ziyarət edərək, əsl jurnalist xarakteri ortaya qoydu. Özü də çoxunun kişi libasında qorxaqlıq göstərdiyi vaxtlarda!




Elmira Axundova barədə danışıram. Cəsarətli insan haqqında. Bu yaxınlarda bu dəyərli xanımın iki kitabı nəşr olunub. Hər iki kitabda istedadlı qələmi ilə yanaşı, həm də keçmişə sayğısı, verdiyi dəyər ön plana çıxır.

"Bizim tanıdığımız Elmira..." adlanan birinci kitabda yaradıcı jurnalistin haqqında ölkənin nüfuzlu ictimai xadimləri, elm adamlarının qələmə aldıqları səmimi sətirləri, əslində, E.Axundovanın yaradıcı fəaliyyətinə olan ictimai baxışdır. Təmənnasız və obyektib baxış! Bu yaradıcı xanımın ictimai və publisistik yaradıcılığına verilən səmimi qiymətlərdir bu fikirlər.

Elmira Axundovanın kitabları arasında "Heydər Əliyev. Şəxsiyyət və zaman" yeddicildlik roman-tədqiqat xüsusi yer tutur. Elmira xanım özü bu əsəri həyatının əsas layihəsi adlandırır. On ildən çox gərgin əmək, kitabın qəhrəmanının uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə söhbətlərin, məşhur siyasi və dövlət xadimləri ilə müsahibələrin yazıldığı yüzlərlə kaset, DTK arxivlərində, Prezidentin şəxsi arxivində iş Azərbaycan xalqının Ümummilli Liderinin ən dolğun və obyektiv bioqrafiyasını yaratmağa imkan verməklə, romanın unikal sənədli əsasını təşkil edir. Budur yaradıcı jurnalistika. Budur ürəklə qələmin vəhdəti!

Kitabda zəngin faktoloji, politoloji və tarixi materiallar toplanıb. Çoxlarına məlum olmayan xeyli faktlar, epizodlar, dərin təhlil və şərhlərlə müşayiət olunan eksklüziv informasiya, həmçinin, müəllifin Ulu Öndər Heydər Əliyevlə şəxsi tanışlığı kitaba xüsusi emosionallıq və səmimiyyət verir. Elmira Axundova, bu dahi insana, sözün həqiqi mənasında, əsrlər boyu yaşayacaq möhtəşəm abidə ucaldıb. Bu gerçəkdən əsl jurnalist bacarığı, əsl vətəndaş mövqeyidir!

Jurnalist kimi uzun illər Ulu Öndərlə təmasda olmuş, ən keşməkeşli vaxtlarda Ulu Öndəri Naxçıvanda ziyarət etməkdən başlamış, sonralar Azərbaycan Prezidenti kimi bir sıra xarici səfərlərində onu müşayiət etmiş E.Axundova, əslində, ən böyük tarixin canlı nümunəsidir.

"Həmkarlarımla üz-üzə" adlı kitab da yaradıcı jurnalistin əsl ictimai portretini canlandırır. Qələmi ilə tarixi yazan bir insan üçün bu nə qədər önəmlidirsə, onu oxuyan yüzlərlə oxucu üçün ikiqat önəmlidir. Tarixi olduğu kimi, ən dürüst və ədalətli mənbədən oxumaq olduqca önəmlidir hər kəs üçün. Bu mənada, Elmira xanımın qələmə aldığı bu kitabların özü də bir tarixdir. Qələmi ilə sənətini ucaldan, sədaqəti və mərdliyi ilə şəxsiyyəti yüksəldən Elmira xanım!

**Şirvan Əbilov,**
**Prezident təqaüdçüsü**

# “İnformasiya təhlükəsizliyində mətbuatın rolu”

## *Bu mövzuda “Səs” qəzetində dəyirmi masa keçirilib*



***Ənənəvi olaraq, ölkənin ictimai-siyasi və sosial həyatında böyük önəm kəsb edən və ictimai maraq doğuran məsələlər ətrafında “Səs” qəzeti tərəfindən təşkil olunan dəyirmi masalar cəmiyyətdə böyük maraqla izlənilməkdədir. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri, eləcə də ictimai-siyasi, sosial məsələlər hökumət, dövlət nümayəndələri, millət vəkilləri və ictimai təşkilat rəhbərləri tərəfindən müzakirə olunur. Dünən “Səs” qəzetinin təşkilatçılığı ilə qəzetin redaksiyasında “İnformasiya təhlükəsizliyində mətbuatın rolu” mövzusunda dəyirmi masa keçirilib.***

Dəyirmi masada millət vəkilləri Musa Quliyev, Elman Nəsirli, Aydın Hüseynov, Kamilə Əliyeva, Jalə Əliyeva, Aydın Mirzəzadə, Azər Badamov, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və KİV nümayəndələri iştirak ediblər.

Dəyirmi masanı giriş sözü ilə açan “Səs” qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev şərəfli, qürurverici dövlətçilik tariximizdən və bu gün ölkə Prezidenti İlham Əliyevin apardığı düzgün, məqsədyönlü siyasət nəticəsində Azərbaycanda əldə olunan uğurlardan, nailiyyətlərdən danışıb. Bildirib ki, bütün sahələrdə olduğu kimi, Azərbaycan milli mətbuatının formalaşması və inkişafı da cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun olaraq aparılır: “Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıdışından sonrakı dövrdə Azərbaycan mətbuatının inkişafında keyfiyyətcə yeni mərhələ başlandı. Mətbuata qarşı senzuranın ləğv olunması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Bütün bunlar, Azərbaycan mətbuatının inkişafına mühüm töhfələr vermiş oldu”.

B.Quliyev bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev milli mətbuatın inkişafına xidmət edən müvafiq fərman və sərəncamlar imzalayıb. Onu da vurğulayıb ki, yeni dövrün çağırışlarına uyğun olaraq, Azərbaycan mətbuatının da yenilənməsinə və təkmilləşməsinə zərurət yaranıb.

**BƏHRUZ QULİYEV:**

- Musa müəllim, bugünkü yenilik və dəyişiklik qəzetlərin inkişafına, Azərbaycan maraqlarının dünyaya çıxarılmasına hesablanıb. Mətbuatımız Azərbaycan reallıqlarını dünyaya çatdırır. Amma etiraf edək ki, belə inkişaf dövrünü yaşadığımız halda, sosial şəbəkələrdə Azərbaycan əleyhinə işləyən, eləcə də, fərdi insanların şəxsiyyətinə yönəldilmiş qərəzli mövqelər ortaya qoyulur. Bu da cəmiyyətin ab-havasına təsirsiz ötüşmür. Belə bir situasiyada hansı addımlar atılmalıdır?

### RUSİYANIN, ÇİNİN, TÜRKİYƏNİN, AVROPANIN BİR ÇOX ÖLKƏLƏRİNİN QANUNVERİCİLİYİNDƏ KİV-LƏRDƏ, ELƏCƏ DƏ, SOSİAL ŞƏBƏKƏLƏRDƏ İNFORFASİYA TƏHLÜKƏSİZLİYİNİN QORUNMASINDA DƏYİŞİKLƏR EDİLİB VƏ MÜXTƏLİF MƏHDUDDİYYƏTLƏR QOYULUB

**MUSA QULİYEV:**

- İlk növbədə, dəyirmi masaların təşkilinə görə, “Səs” qəzetinin rəhbərliyinə təşəkkürümü bildirirəm. Azərbaycan ictimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyevin Qurucusu və Yaradıcısı olan Azərbaycan bu gün Onun siyasi davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir, dünya birliyinin layiqli üzvü kimi müstəqil siyasət həyata keçirir. Sabitliyin möhkəmlənməsi əsasında Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrası sürətləndirilir. Hər sahədə qazandığımız uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndərin irsinin layiqincə yaşadılması dayanır. Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Demokratiya təcrübəsi ölkələrə nümunə olan Azərbaycanda azad mətbuatın inkişafı da diqqətdədir. Ölkəmizdə milli mətbuat sahəsində həyata keçirilən islahatlar demokratikləşmə prosesinin mühüm tərkib hissəsidir. Müasir dövrümüzdə Azərbaycan mətbuatı dünya mətbuatının bir parçası kimi uğurla inkişaf edir. Söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır. Söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqları da tez-tez pozulur.

Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri - qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri, sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada, dördüncü hakimiyyət hesab olunan kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir. Azərbaycan mətbuatı həmişə cəmiyyətin güzgüsü olub və üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirib. Böyük inkişaf yolu keçmiş Azərbaycan mətbuatı özünün müasirliyi, yeniliyi və inkişafa dəstək meyilləri ilə dövrünə böyük dəstək olub. Zəngin tarixi təcrübəyə malik olan və mövqelərini ildən-ilə möhkəmləndirən milli mətbuatımız ölkəmizdə sivil və demokratik cəmiyyət yaradılması işinə layiqli töhfələrini verirlər. Milli mətbuatımız bu gün öz dövlətinin yanındadır.

Əlbəttə ki, bu gün toxunduğumuz mövzu çox aktual bir məsələdir. Bu gün sosial şəbəkələrdə bəzi insanlar tərəfindən Azərbaycana qarşı təxribatlar yer alır. Artıq bu, pik həddə çatıb. Bu, cəmiyyətimizin əxlaqının pozulmasına, mənəvi mühitimizin korlanmasına təsirsiz ötüşmür. Əgər onlar əxlaqsız sözlər danışırlarsa, söyürlərsə, buna qarşı mütləqdir ki, tədbir görülsün. Qanunvericiliyə görə, əgər kimsə təhqir edirsə, cəzasını almalıdır. Bizim qanunvericiliyimizdə boşluq var və bu, tənzimlənəcək. Artıq Rusiyanın, Çinin, Türkiyənin, Avropanın başqa ölkələrinin qanunvericiliyində KİV-lərdə, eləcə də, sosial şəbəkələrdə inforfasiya təhlükəsizliyinin qorunmasında dəyişiklər edilib və müxtəlif məhduddiyyətlər qoyulub. Milli Məclisin deputatları da sosial şəbəkələrdə baş verən hadisələrdən narahatçılıq keçirirlər. Mümkün deyil ki, vətəndaşı təhqir edən şəxs cəzalanmasın. Kimsə hansısa bir cinayət törədərək, qaçıb gizlənirsə, beynəlxalq axtarışa verilib tapılıb gətirilməlidir. O insan törətdiyi əmələ görə cəzasını almalıdır. Təkcə buna Yeni Azərbaycan Partiyası deyil, bütövlükdə, cəmiyyətimiz, müxtəlif qurumlar öz münasibətlərini bildirməlidirlər. Qeyri-hökumət təşkilatları, ziyalılar, hamı bütövlükdə, bu məsələyə münasibətini ifadə etməlidir. Bu hallar, bütövlükdə, bizim cəmiyyətimizə qarşıdır. Siz çox aktual bir məsələyə toxunmusunuz. Təkcə “Səs” qəzeti deyil, digər mətbu orqanlar da susmamalı, müzakirələr aparmalıdırlar. Belə ki, kütləvi informasiya vasitələri insan şəxsiyyətinin və şüurunun formalaşmasında güclü psixoloji təsir gücünə malikdir. İlk növbədə, KİV cəmiyyətdə gedən informasiya prosesinin müxtəlif mərhələləri və tərəflərinə təsir göstərir.

### SOSİAL ŞƏBƏKƏLƏRDƏ BİZLƏRİ TƏHQİR EDƏNLƏRİN GÖRÜNÜŞLƏRİNƏ, DANIŞIQLARINA, MANEVRLƏRİNƏ DİQQƏT YETİRSƏK, GÖRƏRƏRİK Kİ, ONLAR XƏSTƏ TƏXƏYYÜLLÜ İNSANLARDIR

**AYDIN HÜSEYNOV:**

- Azərbaycan, milli dövlətçilik tarixinin heç bir mərhələsində, indiki qədər qüdrətli olmayıb. Bu inkişafı, sabitliyi, tərəqqini təmin edən amil ölkəmizdə Ulu Öndər Heydər Əliyev siyasətinin Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Dövlət başçısı tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və ona həssaslıqla yanaşılır. Azərbaycan mətbuatı uğurlu inkişaf yolundadır. Ölkəmizdə kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görülüb və bu, davam etməkdədir. Ümumbəşəri dəyərləri, de-





mokratik-hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulub. Kütləvi informasiya vasitələrində fikir demək, hadisələrə münasibət bildirmək üçün imkanlar genişdir.

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Azərbaycan Prezidenti Cənab İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Azərbaycan dövləti azad söz, azad mətbuat problemlərini tam mənada həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək səviyyə milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub- saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Günümüzdə sosial şəbəkələr aktual məsələlər sırasındadır. Hər kəs sosial şəbəkədən yararlanır. Şəbəkədən istifadə müsbət və ya mənfi yönümlü ola bilər.



İnformasiyalar, sosial şəbəkələr həyatımızın bir parçasına çevrilib. Ümumilikdə götürdükdə, ölkəmizdə müəyyən təhlükəsizlik proqramları var. Bu sahədə də proqram hazırlanmalıdır ki, sosial şəbəkələrdə necə davranmaq lazımdır. Bizim mənəvi dəyərlərimizə zərbə vura biləcək məqamlardan özümüzü qorumalıyıq. Artıq sosial şəbəkələr qidamız kimidir. Sosial şəbəkələrdə bizləri təhqir edənlərin görünüşlərinə, danışıqlarına, manevrlərinə diqqət yetirsək, görərik ki, onlar xəstə təxəyyüllü insanlardır. Sözün əsl mənasında, onları cəmiyyətdən təcrid etmək lazımdır. Məsələn, Teymurxan Orduxanlı, Vidadi İsgəndərli konkret xəstə insanlardır. Əgər onları ətraflı araşdırsaq, görərik ki, psixoloji problemləri var. Onları müəyyənləşdirməliyik, əgər sağlamdırlarsa, ona cavab verməl lazımdır, əgər onlar xəstədirlərsə, nəyə görə onlara cavab verməliyik? Normal adekvat düşüncəyə malikdirsə, biz də öz konsepsiyamızı yaradaq ki, onlarla necə davranaq.

Sosial mediada dövlət əleyhinə çıxışlar olur. Mənəvi dəyərləri sarsıdan bədniyyətli insanlara qarşı tədbir görülməlidir. Sosial media insanlar arasında virtual sosial ünsiyyət yaratmaq və məlumatları paylaşmaq məqsədi daşıdığından, bundan qərəzli şəkildə istifadə olunur.

## BİZ SOSİAL ŞƏBƏKƏLƏRDƏ OLAN QƏRƏZLİ MÖVQELİ İNSANLARI İNTELLEKTUAL MEYDANA DƏVƏT EDİRİK

**ELMAN NƏSİRLİ:**

- Bu gün, bütövlükdə, Azərbaycan cəmiyyətini çox narahat edən bir mövzunu müzakirə edirik. Mən belə hesab edirəm ki, sosial şəbəkələrdə çox çirkin oyunlar gedir. Burada, ilk növbədə, Azərbaycan dövləti, onun yüksək rütbəli məmurları, millət vəkilləri, ümumiyyətlə, bütövlükdə, sağlam Azərbaycan cəmiyyəti hədəf götürülüb. Belə mövqedə olanlar, təbii ki, sağlam ruhlu, düşüncəli insanlar deyillər. Çirkin niyyətli kampaniyalarda böhtan, təhqir, ləyaqətin təhqir edilməsinə rast gəlinir. Bu, tamamilə insan hüququna zidd addımlardır ki, bunların qarşısının alınması istiqamətində tədbir görülməlidir. Burada iki variant ortaya çıxır. Birinci, onun etdiyi kimi söymək, təhqir etmək, ikincisi isə hüquqi müstəvidə müvafiq mexanizmi işə salmaq, ciddi tədbirlər görülməlidir. Biz sosial şəbəkələrdə olan qərəzli mövqeli insanları intellektual meydana dəvət edirik. Onlarla hüquqi dildə danışaq, faktlarla müzakirələr aparaq. Amma təəssüf ki, onlar bu meydana gəlməyəcəklər.

***(Ardı var)***

***Nəzakət ƏLƏDDİNQIZI***

# Aqrar sahə ilə bağlı Prezident Administrasiyasına daxil olan müraciətlərin sayı azalıb



Ötən illə müqayisədə Prezident Administrasiyasına daxil olan müraciətlərin sayının azaldığı mövzulardan biri də kənd təsərrüfatı məsələləridir. Kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, saxlanması və satışına dəstək verilməsi, subsidiyaların ayrılması, aqrolizinq məsələlərinə nəzarətin artırılması bu mövzuda daha az müraciət edilməsinə səbəb olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov "Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir" başlıqlı məqaləsində yazıb.

2018-ci ildə ölkə vətəndaşlarını düşündürən məsələlərin və onların problemlərinin dövlət orqanları tərəfindən necə həll olunmasından, bu işə göstərilən yüksək diqqət və tələbkarlıqdan bəhs edən geniş təhlili yazıda deyilir: "Cənab Prezidentin qeyd etdiyi kimi, strateji sahə olan aqrar sahə həm iqtisadi, həm də sosial sahədir. Əhalinin 47 faizinin kənd yerlərində yaşadığı nəzərə alınaraq son illərdə bu sahəyə göstərilən diqqət xeyli artırılmış, bununla da əhalinin məşğulluq probleminin həllinə ciddi yardım göstərilmişdir. Görülən tədbirlər nəticəsində Azərbaycan həm öz ərzaq təhlükəsizliyini təmin edir, həm də ixrac potensialını gündən-günə artırır. Bu sahədə innovasiyaların tətbiqi də diqqət mərkəzindədir. Ölkə Prezidenti 2019-cu il yanvarın 24-də Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun açılışında Elektron Kənd Təsərrüfatı layihəsinin təqdimatını müsbət qiymətləndirərək bir daha qeyd etmişdir ki, Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var və hazırda bu sahədə islahatlar uğurla davam etdirilir".

Məqalədə bildirilir ki, kənd təsərrüfatının inkişafında əsas amillərdən biri olan meliorasiya və su təsərrüfatı məsələlərinə aid müraciətlərin sayının ötən il 6,2 faiz azalması da dövlət başçısının bu sahəyə müstəsna diqqətinin nəticəsidir. Son 15 ildə tikilən və tutumu 470 milyon kubmetr olan Taxtakörpü, Tovuzçay, Şəmkirçay, Göytəpə su anbarlarının, suvarma kanallarının və subartezian quyularının istifadəyə verilməsi həm yeni yaradılan aqroparkların, həm də fərdi fermer təsərrüfatlarının su təchizatında olan problemlərin həllinə imkan verib.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

9 fevral 2019-cu il

# Azər Badamov: "Danışıqlar xatirinə danışıqlar aparılmasına heç bir lüzum yoxdur"



## Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Azər müəllim, Nikol Paşinyan danışıqlar zamanı ərazilərin boşaldılması məsələsinin müzakirə mövzusu olunmadığını bildirib. Bu sərsəmləmə nədən irəli gəlir?***

- Nikol Paşinyan danışıqlar zamanı ərazilərin boşaldılmasının müzakirə olunmadığını bildirsə də, görüşlərdə işğal olunmuş ərazilərin boşaldılmasından danışılır. Çünki danışıqların əsas predmeti işğal olunmuş Azərbaycan torpaqlarının boşaldılmasından ibarətdir. Ermənistanla Azərbaycan arasında danışıqlar üçün ayrı bir mövzu yoxdur. Bu gün Azərbaycan üçün Paşinyanla danışıqların bir məqsədi var ki, işğala son qoyulsun , Azərbaycan Dağlıq Qarabağ və onun ətrafında işğal olunmuş rayonlarda sülh bərpa edilsin və oralarda da sosial - iqtisadi infrastruktur layihələri icra edilsin və ordakı vətəndaşlarımız da adam kimi yaşaya bilsin. Paşinyan, bir tərəfdən, əhalini sülhə hazırlamaq istiqamətində iş aparılmasından danışır, digər tərəfdən isə, ərazilərin boşaldılması ilə bağlı danışıqların aparılmadığını bildirir. Paşinyanın bu hərəkətləri onun məsələyə çox ehtiyatla yanaşdığını göstərir. Düşünürəm ki, Paşinyanın danışıqlara getməkdən başqa yolu yoxdur.

***- Ermənistan baş nazirinin Dağlıq Qarabağla bağlı qeyri-konstruktiv açıqlamaları, onu deməyə əsas vermir ki, Paşinyan Koçaryanın və Sarkisyanın səhvlərini təkrarlamaqdadır?***

- Düşünmürəm ki, Paşinyan Koçaryan və Sarkisyanın yolu ilə getsin. Əgər Paşinyan özündən əvvəlkilərin yolu ilə gedərsə, Ermənistanda sosial gərginlik tez bir zamanda daha da artar və yenidən hakimiyyət çevrilişi baş verər. Ona görə də, Paşinyan ayrı bir yolu yoxdur. Əgər Ermənistanı inkişaf etdirmək, sosial durumu yaxşılaşdırmaq və hakimiyyətdə qalmaq istəyirsə, mütləq şəkildə Azərbaycanla danışıqları davam etdirməli və işğala son qoyulması istiqamətində addımlar atmalıdır. Burada bir məsələ də var ki, Paşinyan birdən-birə bir danışıqla məsələni həll edə bilməz. Çünki əgər belə olarsa, Qarabağ klanı hərəkətə keçər və əhalini Paşinyana qarşı qaldırar. Ona görə də, Paşinyan erməniləri yavaş-yavaş sülhə hazırlamalıdır. Həm də paralel olaraq, sarkisyanları və koçaryanları tam zərərsizləşdirməlidir. Proseslər onu göstərir ki, Paşinyanın sərsəm bəyanatları da bu istiqamətə yönəldilib.

***- Ümumiyyətlə, danışıqlar xatirinə danışıqlar aparmağa lüzum varmı?***

- Təbii ki, danışıqlar xatirinə danışıqlar aparılmasına heç bir lüzum yoxdur. Amma Cənab Prezidentin Paşinyanla son görüşləri, onu deməyə imkan verir ki, danışıqlar davam etdirilməlidir. Çünki dünya praktikasında da bütün müharibələrə danışıqlar stolu arxasında razılığa gəlməklə son qoyulur. Hələ ki, danışıqlar üçün kifayət qədər imkan olduğu üçün proses davam etdirilməlidir. Amma danışıqlar bir nəticə verməzsə, təbii ki, güclü ordumuz var və cəbhədə aktiv fazaya keçərək, müharibə yolu ilə ərazilərimizi azad etməyimizə kifayət qədər potensialımız mövcuddur. Qeyd etmək istəyirəm ki, bu məsələdə ən düzgün qərarı Ali Baş Komandanımız verər və biz də hər an buna hazır olmalıyıq.

***GÜLYANƏ***



# DSX-nin keçirdiyi uğurlu əməliyyatlar nəticəsində 22 kiloqramadək narkotik vasitə qaçaqmal qismində ələ keçirilib



***Dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində son günlər Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən bir sıra uğurlu əməliyyatlar keçirilib. Nəticədə 21 kiloqram 775 qram narkotik vasitə, 261 ədəd psixortop həb və 175 ml narkotik tərkibli məhlulun dövlət sərhədindən qaçaqmal qismində qanunsuz keçirilməsinin qarşısı alınıb, bu cinayət əməllərinin iştirakçısı olan iki nəfər həbs olunaraq cinayət məsuliyyətinə cəlb ediliblər.***

Dövlət Sərhəd Xidməti mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, üç halda İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd edən 4 naməlum şəxsin qarşısı alınıb. Sərhəd pozucuları sərhəd naryadlarının qanuni əmrlərinə tabe olmayıb, qaçaqmalı sərhədboyu zolaqda ataraq geri qaçıblar. Belə ki, fevralın 3-də DSX-nin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin Astara rayonunun Alaşa kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində naməlum şəxsin hərəkəti müşahidə olunub və ona "Dayan" əmri verilib. Sərhəd pozucusu əlindəki bağlamaları əraziyə ataraq geriyə qaçıb. Ərazidə aşkarlanan 4 bağlamada 3 kiloqram 80 qram kokos, 1 kiloqram 55 qram tiryək, 105 qram marixuana, həmçinin 190 ədəd "Tramol 225" markalı həb, 175 ml "Mydrax" markalı narkotik tərkibli məhlul aşkarlanaraq götürülüb.

Fevralın 4-də DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun 2-ci Şahsevən kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində naməlum şəxsin qarşısı sərhəd naryadı tərəfindən alınıb. Sərhəd naryadı "Dayan" əmri verərək havaya xəbərdarlıq atəşi açıb. Lakin sərhəd pozucusu tabe olmayıb, əlindəki bağlamanı əraziyə ataraq geri qaçıb. Bağlamada 10 kiloqram 115 qram heroin və "Blow 2003 mini" markalı tapança aşkarlanıb.

Həmin gün Xidmətin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 2 naməlum şəxsin hərəkətini aşkar edən sərhəd naryadı tərəfindən "Dayan" əmri verilsə də sərhəd pozucuları tabe olmayaraq geriyə qaçıblar. Ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib. Nəticədə iki çantanın içərisində 6 kiloqram 670 qram kokos, 390 qram kristal şəklində narkotik maddə olan heroin, 360 qram marixuana və 71 ədəd psixotrop həb götürülüb.

Narkotik vasitələrin sifarişçilərinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində DSX-nin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2 nəfər Azərbaycan Respublikasının vətəndaşı - Füzuli rayonunun Böyük Bəhmənli kənd sakinləri, 1976-cı il təvəllüdlü Həsənov Seymur İbiş oğlu və 1977-ci il təvəllüdlü İsmayılov Ramil Ulduz oğlu saxlanılıb. Faktlarla bağlı müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Praqa Biznes Məktəbinin professoru və Atılım Universitetinin rektoru UNEC-in Qış Məktəbində

***UNEC-də tədrisin keyfiyyətinin daha da yüksəldilməsi, professor-müəllim heyətinin elmi və pedaqoji potensialının artırılması, bu sahədə xarici təcrübənin öyrənilməsi məqsədilə Qış Məktəbinə start verilib.***

UNEC-in Quba Tədris, İdman və İstirahət Kompleksində ənənəvi olaraq, hər semestrin sonunda təşkil olunan növbəti Qış Məktəbində, Zaqatala filialı da daxil olmaqla, UNEC-in 96 müəllliminə Avropanın və Türkiyənin aparıcı ali təhsil müəssisələrinin professorları təlim keçəcək.

"Tələbə nailiyyətlərinin artırılması yönümlü müasir tədris metodları" mövzusuna hsr olunan təlimləri Praqa Biznes Məktəbinin professoru Vadim Strilkovski (Wadim Strielkowski) və Türkiyənin Atılım Universitetinin rektoru, professor Yıldırım Üçtuğun aparacaq.

Təlim müddətində professor V.Strilkovskinin təlimləri "Elmi məqalələrin yazılması qaydaları", "Tələbələrin biliyinin qiymətləndirilməsində müasir və motivasiya əsaslı metodlardan istifadə", "Sərbəst işlərin (tapşırıqların) müəyyən edilməsi və qiymətləndirilməsinin effektiv metodları", "Tədris prosesində motivasiyanı təmin edən üsullar və onların tətbiqi" mövzularını əhatə edəcək. Professor Y.Üçtuğ isə "Dərsin refleksiya hissəsində istifadə olunan metodlar", "Auditoriyalarda liderlik və komandalarla işləmə bacarıqlarının tətbiq edilməsi", "Tələbələrin yaradıcı düşüncəsinə təsir edən metodların istifadəsi: Beyin xəritələri; Skeçlər; Keys (case); Rol oynama; In-basket" mövzularında təqdimatlarla çıxış edəcək.

# Qondarma soyqırımı günü elanı Makronu ifşa etdi

***Fransa prezidenti Emanuel Makronun 24 aprel tarixini erməni soyqırımı elan etməsini Nikol Paşinyanın məmnuniyyətlə qarşılaması erməni xislətinin əsl simasını göstərir. Paşinyan "twitter" açıqlamasında Fransa prezidentinin erməni soyqırımı ilə bağlı açıqlamasını salamlaması ikrah doğurur. Elə bir qeyri-adi, nifrət dolu təəssürat doğurur ki, bunu sözlə ifadə etməkdə belə çətinlik çəkən hər kəsi başa düşmək olar.***

Heç şübhə yoxdur ki, istər Makron, istərsə də Paşinyan heç bir soyqırımının olmadığını çox yaxşı bilirlər. Bu iki saxtakarın, bilə-bilə ki, erməni soyqırımı deyilən bir hadisədən söhbət belə gedə bilməz, belə bir hadisə olmayıb, bunu soyqırımı günü kimi elan etməsi simasızlıq nümunəsidir. Hətta erməni baş nazirinin Makronu insan hüquqlarını qoruyan biri kimi tərif etməsi simasızlığın ən maksimal həddidir. Çünki o, olmayan bir soyqırımı barədə Makronun da bildiyinə əmindir və Fransa liderinin verdiyi elanının nə insan haqlarına, nə də, ümumilikdə, həqiqətlərə uyğun olmadığını çox gözəl bilir.



### Fransa prezidentinin qondarma soyqırımla əlaqədar çanfəşanlığı tamamilə yersiz, bayağı görünür və eyni zamanda, absurd səslənir

Fransanın prezidenti Emanuel Makron 1915-ci il hadisələri kimi, Osmanlı imperiyasının bu ərazilərdə yaşayan erməniləri qətlə yetirdiyini bildirməklə, ən böyük saxtakarlığa bu dəfə də imza ata bilib. Makron guya ki, ermənilərin amansızlıqla öldürülməsinə, erməni əsillilərin qətlə yetirilməsinə inanır və buna əmin olduğunu göstərməyə çalışır. Bu mənada, 24 aprel tarixini də, uydurma erməni soyqırımını anma günü kimi elan etməkdən də utanmır.

İlk növbədə, Makronun insan haqlarından danışmağa üzü olmadığını indi nəinki Paşinyan, bütün dünya ictimaiyyəti çox gözəl bilir. Onun Fransada sarı jiletlilərə qarşı amansızlıqla davrandığını bilməyən yoxdur. Əgər bu Fransa prezidenti belə insan haqlarına həssaslıqla yanaşırdısa, niyə öz vətəndaşlarının halına acımır, onların haqq və hüquqlarını hesaba almırdı? İndi erməni soyqırımı adlandırdığı yalançı, qondarma təxəyyülə, guya ki, həssas yanaşdığını göstərmək istəyən bu adam, həqiqətdə, əzilən nümayişçilərə qarşı niyə amansızlıq edildiyi zaman, belə həssas deyildi? Erməni əsillilər onu yerli fransızlardan daha çox maraqlandırırdı, yoxsa?

Göründüyü kimi, Fransa liderinin çanfəşanlığı tamamilə yersiz və bayağı görünür. Eyni zamanda, absurd səslənir. Əvvəla, ona görə ki, hal-hazırda baş verən insan haqları pozuntularına göz yumduğu halda, bir əsrdən çox müddət bundan əvvəl, baş verdiyi iddia olunan, əslində isə, olmayan hadisəyə görə canfəşanlıq nümayiş etdirmək çox gülüncdür. Digər tərəfdən, öz vətəndaşlarının əzişdirilməsinə hökm verib, hansısa erməninin uydurma soyqırımına həssaslıq göstərmək heç bir normaya sığışmır. Bu qədər simasızlığı, bu qədər saxtakarlığı dünya ictimaiyyəti uzaqbaşı ermənilərdən görə bilərdi ki, bunu Makrondan da gördü. Ola bilsin, kimlərsə bu vaxta qədər "sarı jiletlilərin" hakimiyyətə, birbaşa olaraq Makronun özünə qarşı nümayişlərini pisləyə bilərdi. Amma heç inanılası deyil ki, bundan sonra kimsə bu "sarı jiletlilərin" Makronun istefası tələbini başa düşməsin və alqışlamasın. Lalın dilini anası bilər və görünür, fransızlar özləri hamıdan yaxşı bilirlər bu Emanuelin kim olduğunu və istefa tələbi ilə meydanlara toplaşanlar onun nəyə layiq olduğunu əbəs yerə ortaya qoymurlar.

### Fransa hökumətinin qondarma soyqırımla bağlı anım gününü elan etməsində xristian həmrəyliyi və ermənipərəstlik əsaslı rol oynayır

Fransanın, bir dövlət olaraq, qondarma erməni soyqırımını tanıması yenilik də deyil. İlk əvvəl, bu uydurma soyqırımı məsələsinin 2001-ci ildə ortaya atıldığı hamıya məlumdur. İndi Makronun belə bir elan verməsi, soyqırımı kimi adlandırdığı qondarma tarixi anım günü elan etməsi gözlənilən bir hadisədir. Fransanın Ermənistanla olan münasibətlərinin, ermənilərin fransız liderləri satın almasının fonunda, təbii ki, bu kimi absurd fikirlərin olacağı, ermənipərəst mövqe sərgiləncəyi gözləniləndir. Fransa hökumətinin qondarma soyqırımla bağlı anım gününü elan etməsində digər məqamlar da diqqəti cəlb etməyə bilməz və burada xristian həmrəyliyi də əsaslı rol oynayır. Bu həmrəyliyin təsiri altında Makron açıq-aşkar ermənipərəst olduğunu nümayiş etdirməkdən zərrə qədər çəkinmir də. Çox acınacaqlı haldır ki, ermənilərin yalan və saxtakarlıq üzərində uydurduqları soyqırımı adlı qondarma tarix Fransa kimi özünü demokratik hesab edən bir Avropa dövlətində anım günü elan edilir.

Ermənipərəst mövqeyi Fransanın Türkiyə ilə əlaqələrinə də müsbət təsir göstərmir. Görəsən, Makron dərk edirmi ki, ermənilərin uydurmalarına görə, Türkiyə ilə münasibətləri özü pozur? Dəyərmi erməni yalanına görə, bu münasibətlərə xələl gətirməyə? Bu sual təsdiq edir ki, Fransa hökuməti, şəxsən Makron növbəti dəfə yanlış və uğursuz siyasət yürüdür.

Bu arada Fransada qondarma erməni soyqırımını tanımamağa görə, bir vaxt cərimələrin tətbiqi hadisəsi də yada düşür və bu fakt təsdiq edir ki, bu Avropa ölkəsini demokratiya, insan haqları yox, məhz erməni təəssübkeşliyi maraqlandırır. Dünyanın heç bir ölkəsində rast gəlinməyən bu cərimə növünün Fransada tətbiq olunması sadalananları təsdiq edir. Başda Ermənistanın özü olmaqla, heç bir ölkədə belə bir cərimə yoxdur. Maraqlıdır, fransızlar qondarma erməni soyqırımını ermənilərin özlərindən də çox anmaq, xatırlamaq, tanımaq məcburiyyətindədirlərmi? Ermənistanın özündə belə soyqırımı tanımamağa görə, bu şəkildə yanaşma, bu şəkildə cəza tədbirləri tətbiq olunmadığı təqdirdə, bunun Fransada tətbiq edilməsi absurddur.

Ermənistanın baş naziri Makronun qərarını alqışlaya da bilər, tərif edə də bilər, hətta bu qərarı təşviq etməyə də qalxar, amma bütün dünya ictimaiyyəti çox gözəl bilir ki, Makron 24 aprel tarixini qondarma soyqırımının anma günü elan etməklə, ermənipərəstliyini bir daha təsdiqlədi. Daha doğrusu, qondarma soyqırımı günü elanı Makronu ifşa etdi.

***İnam HACIYEV***

## "Ermənistan həyasız iddiaları ilə vaxt qazanmağa çalışır"

"Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarla əlaqədar nikbin hissin yaranması üçün ciddi əsaslar yoxdur". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

ABŞ-ın prosesləri hərəkətə gətirmək, status-kvonu dəyişmək üçün cəhdlər etdiyini deyən politoloq söyləyib ki, Paşinyan və onun komandası isə Kremlin çaldığı düdüyün havasına oynayır: "Açıq şəkildə görünür ki, Kreml bu proseslərin yalnız onun ssenarisi əsasında cərəyan etməsini, bu məsələdə inhisarçı mövqeyini qoruyub saxlamaq istəyir. ABŞ-ın və müəyyən qədər də Avropanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar proseslərə qatılmasına ciddi qısqanclıqla yanaşır".

Q.Hüseynli qeyd edib ki, problemin həlli istiqamətində görüşlərin keçirilməsi vacibdir: "Amma nəticəsiz görüşlərə, ciddi məsələlərin müzakirə edilmədiyi görüşlərə nikbinlə yanaşmaq mümkün deyil. İndiyədək konkret məsələlərin müzakirə olunmadığı saysız-hesabsız görüşlər keçirilib. Bildiyiniz kimi fevral ayının sonunda da Azərbaycan və Ermənistan XİN başçıları arasında görüşün keçirilməsi nəzərdə tutulur. Lakin bu görüşün ciddi nəticələr verəcəyini gözləmək çətindir. Çünki Paşinyanın ikrah doğuran bəyanatları ilə nə qədər qatı erməni millətçisi, siyasətdən uzaq bir insan olduğunu görməmək mümkün deyil. Paşinyan erməni təcavüzünü belə həyasızcasına danır, Azərbaycan torpaqlarının işğalını guya 50-70 min erməninin yaşadığı qondarma Dağlıq Qarabağ erməniləri tərəfindən işğal etdiyi barədə əsilsiz iddialar irəli sürür. 50-70 min əhalisi olan bir ovuc insan uzağı 2 min nəferlik əldəqayırma dəstə yarada bilər ki, bu dəstəni də azərbaycanlılar papaqları, balta, bel ilə qovardılar. Mən hələ müasir silahları demirəm. Ona görə də, Paşinyan kimi bir insanın qarşısına ciddi faktlar, sənədlərlə getmək lazımdır. Əks halda, onlar daha da azğınlaşaraq, həyasız iddialar irəli sürərək vaxt qazanmağa çalışırlar. Erməni tərəfi qeyri-konstruktiv mövqeyini davam etdirərək, danışıqların mahiyyətini saxtalaşdırır. Bu baxımdan görüşdən müsbət nəsə gözləməyə dəyməz".

## "Bəzi Qərb təşkilatlarının hesabatı qərəzli mənbələrə əsaslanır"

"Freedom House" təşkilatının son hesabatında Azərbaycanla bağlı rəy və qənaətlər Qərbdə ölkəmizə təmayüllü münasibətlərin hələ də dəyişmədiyini bir daha göstərdi. O da təsdiqlənir ki, bəzi beynəlxalq təşkilatlar Azərbaycan barədə hesabatlarına hər il kosmetik dəyişikliklər edərək dövriyyəyə buraxmaq üslubunu dəyişməyiblər". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru siyasi şərhçi Aydın Quliyev deyib. O bildirib ki, "Freedom House" təşkilatının son hesabatında Azərbaycan barədə yazılanları oxuyanda bunların nəinki indiki vəziyyətə, heç 1990-cı illərin ortalarındakı vəziyyətə də uyğun gəlmədiyini dərhal sezə bilirik: "Bu təşkilatın Azərbaycanı sevməyən və pislik etmək istəyən beynəlxalq dairələrin təsirində olduğu o qədər məlum həqiqətdir ki, bunu sübut etmək üçün vaxt sərf etməyə ciddi adamların heyifi gəlir. Ancaq bir neçə məsələyə xüsusi münasibətimizi göstərməliyik".

Eyni məzmunlu hesabatların hər il cüzi dəyişikliklərlə yenidən bəyan edildiyini deyən baş redaktor söyləyib ki, buna görə də hesabatlar eyni qərəzli və qeyri obyektiv mənbələrin rəylərinə əsaslanır. A.Quliyev söyləyib ki, sözügedən təşkilatlar erməni lobbistləri ilə fəal çalışır: "Freedom House" təşkilatının Ermənistanda siyasi dustaq ölümünə və Fransada qeyri insani zorakılıqlara susması onun iş üslubunda ikili standartların olmasına şübhə yeri qoymur. Bu təşkilat Azərbaycan hökuməti ilə səmimi və açıq işləməməsi çox ciddi bir qüsurdur. Bu azmış kimi təşkilat həm də bütün xətalı hesabatların əsas mənbəyidir".

Siyasi şərhçi vurğulayıb ki, Azərbaycana qarşı qərəzli mövqedə olan təşkilatların subyektiv rəylərinin təsirinə düşmək deyil, ölkəmizdəki reallıqları daha da təkmilləşdirmək və Azərbaycana daha obyektiv münasibət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığın intensivliyini artırmaq lazımdır. Onu da deyim ki, bu arada məlum beynəlxalq qurumların Azərbaycanla qərəzli davranışlarında artım ola bilər. Çünki bu məsələlər Dağlıq Qarabağ probleminin həllində Azərbaycan diplomatiyasının mövqelərinin güclənməsi ilə sinxron qaydada bağlıdır".

# Xəyanət vərdişi və ağır bədəl

## Əli Kərimli etdiyi xəyanətlərə görə cəzasını çəksə də, boynunda qalan mənəvi borcunu da ödəyə bilməyəcək

***Bu gün AXCP sədri Əli Kərimlinin xəyanətləri acı bağırsaq kimi uzanır ki, uzanır gedir. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən növbəti məhkəmə iclasında şahid qismində dindirilənlərin verdikləri ifadələr də bir daha AXCP sədri Ə.Kərimlinin cəzasının daha ağır olacağından xəbər verir.***



Şahidlər Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov Ə.Kərimlinin hər dəfə xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyində olduğunu bildiriblər. Vurğulanıb ki, AXCP sədrinə, həmçinin, bu pulların qanunsuz yollarla çatdırıldığı, bu pullar vasitəsi ilə ölkədə qarışıqlıq yaratması AXCP-nin mitinqlərində texniki vasitələrin alınmasına xərclənəcək və həmin pullar, əsasən, Ə.Kərimliyə verilir. Həmçinin, məhkəmədə o da bildirilib ki, toplanan pullar xəyanət vərdişli Ə.Kərimlinin keçirdiyi mitinq və toplantıların maliyyələşdirilməsinə sərf olunur və bu gün də bu proses davam etməkdədir.

### Əli Kərimlinin gerçək simasızlığı da ifşa olunur

Həmçinin, məhkəmədə illər keçəndən sonra bəlli oldu ki, məhz həmin illərdə Qərb təşkilatları "Azadlıq" qəzetinə yüz minlərlə dollarlıq qrantlar ayırırmış. Əli Kərimlinin manipulyasiyaları bir deyil, iki deyil, onlarla, yüzlədir... Ümumiyyətlə, onun özünəpərəstişlik üzərində qurduğu "siyasətinin" əsas qayəsi də budur ki, "lider", yaxud "siyasi rəhbər" olaraq, tükənmiş AXCP sədri, hətta neçə illər öncə, hər hansı bir məsələ üzərində oynadığı oyunbazlığını bir müddət sonra təkrarlayır. Misal üçün, bu günlərdə bəlli olub ki, sosial şəbəkələrdəki trolları elə özünün tapşırığı ilə onun bir neçə il əvvəl çıxış etdiyi videosunu paylaşıblar.

### Satqın kimdir? Yaxud kor kora kor deməsə...

Ən çox gülüş doğuran odur ki, Ə.Kərimli, hətta məhkəmədə onun kimi düşünməyənləri, onun ətrafında olmayanları, onun liderliyini qəbul etməyənləri "satqın" adlandırıb. Ancaq Ə.Kərimlinin bədbəxtçiliyi ondadır ki, bu günə kimi əsl reallığı anlamayıb və bu fərqləri də görə bilməyib. Çox adi bir fakta nəzər yetirək. AXC hakimiyyəti dövründə bəzi hakimiyyət nümayəndələrinə qanuni mənzil növbələrinə uyğun olaraq mənzil verilmişdi. O cümlədən, Əli Kərimliyə də. Hakimiyyət devrilən kimi hakimiyyətdən asılı məhkəmələr vasitəsilə həmin mənzillərin orderləri ləğv etdirildi. O cümlədən, Əli Kərimlinin orderi də. Maraqlıdır ki, "hüququna toxunulan 6 nəfərin adlarını yazan (Sabit Bağırov, Vurğun Əyyubov, Qulamhüseyn Əliyev, Əli Məsimov) "Azadlıq" qəzeti orderi ləğv edilmiş Əli Kərimlinin adını qeyd etməyi "yaddan çıxarıb".

Səbəbi sonradan məlum olur. 10 sentyabr 1994-cü il mitinqində həbs olunan Ə.Kərimlini bir neçə gündən sonra azad etməklə bərabər, mənzilini də qaytarırlar. Hazırda Ə.Kərimli yeganə "müxalifət" nümayəndəsidir ki, yüksək vəzifə sahibləri ilə birlikdə polis tərəfindən mühafizə olunan binada yaşayır. Mənzil, bahalı avtomobillər, cangüdənlər, qəzetlər, muzdlu yazarlar dəstəsi... Bütün bunlara sahib olmaq faktı özlüyündə hər şeyə cavab verir. Hələ o zamanlar mətbuatda Ə.Kərimliyə ünvanlanan "Bu imkanlar hardandır?" sualına, adətən, "dostlarım kömək edir" məzmunlu cavab verirdi.

### Əli Kərimlinin saxta prinsipi...

Kərimlinin satqın siyahısı kifayət qədər genişdir. Həm də bu siyahıda adlar tez-tez dəyişir. Bu gün Əli Kərimlinin ətrafında "gerçək müxalifçilik" libasına bürünənlərlə dünənki münasibətlərə yenidən nəzər salmaq maraqlı olardı.

### İbrahim İbrahimli şantajla qovuldu

AXCP və Ə.Kərimlinin əsas təbliğatçılarından biri olan İbrahim İbrahimlini onun ilk qurbanlarından saymaq olar. 4 iyun qiyamından sonra AXC-nin bütün yükünü çiynində daşıyan AXC sədrinin birinci müavini, bütün ruhu ilə Cəbhə ideologiyasına bağlı olan İbrahim bəy qəfildən təşkilatı tərk etdi və onun postunu Əli Kərimli tutdu. İ.İbrahimlinin AXC-dən getməsi haqda lap bu günlərdə "Ümüd" partiyasının sədri İqbal Ağazadə danışdı: "1993-cü ildə ünlü bir müxalifət liderini elə bu gün ünlü deyilən bir müxalifət lideri şantaj etmişdi - bir kasetlə, onun şəxsi həyatı ilə. Biri qadın olmaqla, iki nəfərin səsi yazılmışdı və onunla şantaj olunmuşdu. Bu, faciədir. Təəssüf ki, indi özü də, çevrəsi də şantaj olunur. Amma vaxtilə o, şantaj etmişdi. Siyasətdə bu cür çirkin oyun qaydasını o, tətbiq edib. O zaman şantaj olunan adam təşkilatdan çıxıb getmişdi sonda".

İ.Ağazadə ad çəkməsə də, bir sıra keçmiş hərəkatçılar sosial şəbəkələrdə həmin hadisəni təhlil edib, bildiriblər ki, millət vəkili bu sözləri AXCP sədri Əli Kərimli ilə İ.İbrahimliyə aid edib. İddialara görə, Ə.Kərimlinin təşkilatçılığı ilə o zaman Azərbaycan Xalq Cəbhəsi sədrinin birinci müavini olan İ.İbrahimlinin səsi gizlin yazılıb və bununla, o, şantaj olunub. İ.İbrahimli də bunun nəticəsində, 1995-ci ildə təşkilatı tərk etmək məcburiyyətində qalıb. Aparılan diskussiyalardan o da aydın olur ki, siyasi kuluarlarda belə bir söhbətin baş verməsi, uzun müddətdir dolaşır, sadəcə, kimsə bunu ictimailəşdirməkdə maraqlı olmayıb.

### Oqtay Gülalıyevin partiyadan çıxarılması və gənclərə qarşı sifarişli repressiya

Ə.Kərimli artıq AXCP sədrinin birinci müavini olduqdan sonra partiya daxilində ilk separatçılıq mövqeyini və repressiya maşınını AXCP gənclər komitəsinə qarşı yönəltdi. Komitənin yaranması prosesində bütün ciddi-cəhdlə bu qurumu "Yurd"un nəzarəti altına almağa çalışan Kərimli buna nail olmadı.

Bakıda baş verən oyunlardan xəbərdar olan Əbülfəz Elçibəy Kələkidən sərəncam yolladı. Bu sərəncamla AXCP gənclər komitəsi təsis olundu və Oqtay Gülalıyev onun sədri təyin olundu. Elə həmin vaxtdan da Əli Kərimli gənclərin təşkilatını hədəf seçdi. AXCP gənclər komitəsi Ə.Kərimlinin kabinetlərə bağlamaq istədiyi təşkilatı yenidən hərəkatçılıq ruhuna qaytarmaq cəhdi idi. Bu cəhdə qarşı Kərimlinin komandası bütün gücü ilə təbliğati və siyasi hücumlara başladı. 1995-ci ildə AXCP-nin seçkilərdə iştirakına etiraz edən gənclər komitəsinin sədri Oqtay Gülalıyevi partiyadan xaric etdi. Bax, tarix və fakt budur. Əli Kərimlinin dünəni bundan ibarətdir. Bu gün Ə.Kərimlinin xarakteri dəyişməyəcək: satqın, cinayətkar, xəyanətkar...

### Elşad Musayev: "Əli Kərimli, həmçinin, fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub"

DMP sədri, millət vəkili Elşən Musayev bildirib ki, Ə.Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub. Onun sözlərinə görə, Ə.Kərimli bütün siyasi fəaliyyəti boyunca ancaq satılmaq işinə baxıb: "Əli Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti, məhz satılmağa köklənib".

Bu gün hər şeyin ortalıqda olduğunu deyən E.Musayev, onu da əlavə edib ki, Əli Kərimli heç kimə lazım deyil. Artıq keçirilən məhkəmə zamanı AXCP sədrinin xəyanətləri, etdiyi cinayətlər dindirilən şahidlər tərəfindən də bir daha sübuta yetirilib: "Göründüyü kimi, əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri heç nəyi və heç kimi unutmur. Necə deyərlər, hər şey elin gözü qabağındadır. Ən böyük tərəzi də, məhz odur".

Ancaq Ə.Kərimli bir reallığı da anlamalıdır ki, etdiyi xəyanətlərə görə cəzasını çəksə də, boynunda qalan mənəvi borcunu da ödəyə bilməyəcək. Çünki bu borcu ödəməkdən ötrü, ən azından, dəmir barmaqlıqlar arasına getməlidir. Buna isə, onun cürəti çatmır. Ancaq necə deyərlər, şah qanun deyil, qanun şahdır. Bütün törətdiyi əməllərinə görə, Ə.Kərimli mütləq şəkildə cavab verməli olacaq.

**R.HÜSEYNOVA**

## Gömrükdə qanunsuz yolla gətirilən mobil telefonlar aşkarlandı



Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında, idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan Azərbaycan Respublikasına gələn "Hundai Sonata" markalı avtomobil saxlanılıb və gömrük baxışı keçirilib. Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, baxışdan öncə, vətəndaş üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib. Daha sonra avtomobilə baxış keçirilib. Baxış zamanı nəqliyyat vasitəsinin motor yerindən 1 ədəd "Samsung Galaxy J6", 1 ədəd "Redmi Note 6 pro" markalı mobil telefonlar və 5 ədəd mobil telefon qutuları aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

---



## İndi əsl yerində olan Gültəkin

**RƏFİQƏ**

***Adam nə qədər nankor olar? Əgər adamdırsa? Bu gün dövlətin çörəyini yeyən, əqidəsini 180 dərəcə dəyişən, vətəninə arxa çevirən, ancaq sosial şəbəkələrdə yazdığı statusların mətninə, ordakı atmacalara, uşaq tək, yeri gəldi-gəlmədi, əlavə etdiyi "smayl"lara diqqət yetirmək kifayətdir ki, Gültəkin Hacıbəylinin hansı səviyyə və məntiq yiyəsi olduğunu görəsən. Gültəkin əvvəllər yerində olmayıb. İndi isə əsl yerindədir, öz qəlibindədir. Ona böyük şəxsiyyətlərin deyil, elə Kərimli və Cəmil kimi uğursuzların yanında olmaq yaraşır.***

"Milli Şura"nın yanvarın 19-da keçirdiyi rüsvayçı mitinqdə diqqəti cəlb edən və ictimai rəyin şiddətli qınağına səbəb olan G.Hacıbəylinin bu gün bir neçə yüz adamın qarşısına çıxıb "haqq-ədalətdən" danışması, ümumiyyətlə, heç bir çərçivəyə sığmayan bir haldır. Çünki bu fərd hələ deputat olduğu dövrlərdə onlarla qaçqının və əlillərin, şəhid ailələrinin haqqına girərək, dövlətin onlara aid etdiyi torpaqlara güc yolu ilə sahib olurdu. Bəlkə unudub, bu nankor satqın? 2008-ci ildə Mehdiabad bələdiyyəsindən şantaj və həyasızlıq vasitəsi ilə torpaq qoparmağınızı xatırlayırsınızmı? Uca səslə deyirdiniz ki, "Mən millət vəkiliyəm, prezident seçkilərində ölkə başçısının vəkili olmuşam! Bu gün müdafiə etdiyiniz cinayətkarlar dəstəsini - Xədicə İsmayılı, Leyla Yunusu, İntiqam Əliyevi, Tofiq Yaqublunu, Əli Kərimlini, Cəmil Həsənlini... necə ittiham edirdiniz?! Bu adamları "xalq düşməni" adlandırırdınız... Deyə bilərsinizmi, o zaman daha səmimi idiniz, yoxsa indi?!

Məhz həmin faktları da önə sürərək, deyə bilərik ki, G.Hacıbəyli, heç vaxt ədalətdən danışmağa mənəvi haqqınız yoxdur. Nə Azərbaycan barədə, nə də adicə insanlıq ətrafında. Çünki onun atdığı iyrənc, mənfur addımların hər biri xəyanətkarlıq, milli satqınçılıq olmaqla yanaşı, həm də qeyri-insanidir. Bu səbəbdən, sizin kimilərin yeri cəmiyyət arasında ola bilməz!

Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - NANKORLUQ!

# İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

***XXI əsr İnformasiya və Kommunikasiya Texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Müasir texnologiyalar həyatımızın bütün sahələrinə sürətlə daxil olmaqdadır. Dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə cəmiyyəti əhatə edib. İnformasiya texnologiyalarının daha geniş yayıldığı ölkələr dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır. İndi cəmiyyətimizi informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm yenilik olan internetsiz təsəvvür etmək qeyri-mümkündür. Azərbaycan dövləti internetin cəmiyyətin və insanların həyatının ayrılmaz hissəsi olduğunu nəzərə alaraq indiyə qədər bu istiqamətdə bir sıra addımlar atıb.***



2003-cü ildə Ulu Öndər Heydər Əliyevin təsdiq etdiyi İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya, Prezident İlham Əliyevin 21 avqust 2004-cü ildə təsdiq etdiyi "2005-2007-ci illərdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Dövlət Proqramı", həmçinin 22 oktyabr 2005-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın da əsas hədəflərindən biri məhz ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaqdır və Azərbaycan dövlətinin bu məsələyə ciddi diqqət göstərməsindən xəbər verir. Qəbul edilən bu sənədlər Azərbaycan dövlətinin İKT-nin inkişafına diqqətlə yanaşdığını göstərir. Dünya təcrübəsi də təsdiqləyir ki, internetdən geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar bəzi problemlərin həlli üçün tutarlı vasitələrdən biri hesab olunur.

### Elektron dövlət quruculuğu

Bu gün Azərbaycan dövləti informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanılır. Hazırda informasiya cəmiyyətin bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur. Müasir tələblər baxımından ölkədə informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsi, bütövlükdə dövlətin hərbi-siyasi və sosial-iqtisadi potensialının göstəricilərindəndir. Azərbaycan, bu mənada, istisna hal təşkil etmir və informasiya cəmiyyətinə keçid üçün ölkədə əlverişli şəraitin yaradılması Azərbaycan dövlətinin siyasi məqsədlərindən biridir. Ölkənin şəbəkələşməsi, vətəndaşların və təşkilatların bir-biri ilə onlayn əlaqələr yaratması, elektron imza texnologiyasının tətbiq olunması elektron dövlətin əlamətləridir. Elektron dövlət yaradılması, təbiidir ki, qısa müddətin işi deyil. Bu, informasiya cəmiyyətinin formalaşması prosesinin bir təzahürü olaraq get-gedə dərinləşir, yeni texnologiyalar meydana çıxır, informasiya resurslarının sayı da, həcmi də artmaqda davam edir. İnsanlar informasiya texnologiyalarına yaxından bələd olur, onun imkanlarından yararlanırlar. Azərbaycanda bu iş tam qənaətbəxşdir. Elektron dövlət quruculuğu müvafiq proqrama uyğun olaraq çox uğurla həyata keçirilir və yüksək templə davam etdirilir.

### "ASAN xidmət" mərkəzləri yaradılması

Ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə önəmli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN xidmət" sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. "ASAN xidmət"in daha bir uğuru da robot Sofiyanın mərkəzində könülü kimi fəaliyyət göstərməsi və İmişli rayonunda "ASAN Həyat" kompleksinin açılışı zamanı Prezident İlham Əliyevə təqdim olunmasıdır.

### Kosmik sənayenin inkişafı

İnformasiya-kommunikasyia texnologiyalarının əsas özəyi olan kosmik sənaye infrastrukturunun yaradılması da dövlətimizin əsas hədəflərdən sayıla bilər. Kosmik sənaye çoxşaxəli olub, kosmik maşınqayırmanın inkişafı, kosmik komplekslərin layihə simasının təkmilləşdirilməsi, kosmik tədqiqatların nəticələrinin analizi, təsərrüfat əhəmiyyətli məsələlərin həlli, informasiyanın toplanılması və emalının müasir texnologiyalarının yaradılması, həmçinin, yeni növ materialların hazırlanması kimi geniş bölmələri əhatə edir. Bu nəhəng infrastrukturların yaradılması güclü iqtisadi inkişaf və milli-elmi kadr institutlarının olmasını vacib edir.

Azərbaycan tarixinin önəmli layihələrindən biri olan "Azerspace-1" peykinin 2013-cü ildə orbitə çıxarılması ilə ölkəmiz azsaylı dövlətlərin təmsil olunduğu "kosmik klub"a üzv olub. Uzaq olmayan keçmişə nəzər salsaq, görərik ki, Azərbaycanda bir çox digər sahələrdə olduğu kimi, kosmik sənayenin əsasları da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1974-cü ildə Azərbaycan Elmlər Akademiyasının nəzdində "Kosmik cihazqayırma konstruktor bürosu" yaradılıb və kosmik tədqiqatların aparılmasına başlanılıb. Əfsuslar olsun ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən siyasi proseslərin destruktiv təsirləri kosmik sənayedən də yan keçməyib, bu sahədə ixtisaslaşmış kadrların ölkədən axınına, əldə olunmuş bilik və təcrübənin itirilməsinə səbəb olub. Prezident İlham Əliyevin 2009-cu ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" ilə Azərbaycanda müasir kosmik layihələrin həyata keçirilməsinə start verilib. Bu da, öz növbəsində, xarici dövlətlərin peyklərindən asılılığı aradan qaldırıb və "Azerspace-1" ölkəmizin informasiya təhlükəsizliyinin vacib komponentinə çevrilib.

"Azerspace-1" peyki ilə yanaşı, "Azersky"da suverenliyimizin qorunması və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlara malikdir. 2015-ci ildən etibarən "Azersky" peyki ölkənin müdafiə və təhlükəsizliyi üçün davamlı istifadə edilir, həmçinin işğal olunmuş ərazilərimizdə törədilmiş yanğınların, mütəmadi olaraq, monitorinqi və dəymiş ziyanın qiymətləndirilməsi aparılır. "Azerspace-1"in ardınca, dünən ölkəmizin 3-cü peyki orbitə çıxarılıb.

### İnformasiya müharibəsi

Bir zamanlar silah gücünə həll edilən bəzi məsələlər bu gün informasiyanın köməyi ilə yoluna qoyulur. İnternet həm də getdikcə savaş meydanına çevrilir. İndi hər cür informasiyanı əldə etmək, yaymaq üçün texnologiyanın son uğurlarından istifadə edirik. Kompüter və internet isə sürətlə həyatımıza az qala hava - su kimi daxil olmaqdadır. Azərbaycanın informasiya təhlükəsizliyini təmin edən əsas amillərdən biri, Azərbaycan, onun tarixi, mədəniyyəti, siyasi sistemi haqqında informasiyaları, eləcə də, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıracaq çoxlu sayda yaradılmış veb-saytların və səhifələrin olmasıdır. Azərbaycanda informasiya cəmiyyətinin formalaşması prosesində ölkənin milli informasiya təhlükəsizliyi sisteminin yaradılması, informasiya fəzasının təhlükəsizliyinin və vətəndaşların informasiya hüquqlarının müdafiəsinin təmin edilməsi İKT sahəsində fəaliyyət göstərən mütəxəssislər qarşısında duran əsas vəzifələrdən biridir.

Son vaxtlar xaricdə ermənilərin nəzarəti altında olan media orqanlarının Azərbaycanla bağlı yaydığı dezinformasiyaların sayı kəskin şəkildə artıb.

Yalan informasiyalar, əsasən, Ermənistan dövləti, erməni diasporu və lobbisinin birbaşa tapşırığı və nəzarəti altında tirajlanır. Ermənistanda və xaricdə yaşayan ermənilər Azərbaycan barədə yalan informasiyaları "aprel müharibəsi"ndə məğlub olduqdan sonra daha da artırıb. Demək olar ki, hər gün xarici mətbuatda erməni lobbisinin tapşırığı ilə ölkəmizlə bağlı yalan məlumatlar yayılır. Belə məlumatların hər gün daha da artması bəzi suallar ortaya çıxarır. Xaricdə erməni lobbisi və diasporu ilə informasiya müharibəsi aparmaq üçün birbaşa məsul olan qurumlar var və bu qurumların xaricdə fəaliyyət göstərən Azərbaycan təşkilatlarına dəstək verməsi məqsədəuyğun olardı. Erməni lobbisinin Azərbaycanla bağlı hər gün artan yalan məlumatları ilə müqayisədə bunu heç də müsbət qiymətləndirmək olmaz. Hər kəsə məlumdur ki, ermənilər döyüş meydanında Azərbaycana qalib gələ bilmir. Ermənilər həmişə Azərbaycan qarşı qərəzli müharibə aparıblar. Onlar bizdən aprel məğlubiyyətinin əvəzini, hər nə yolla olur-olsun, çıxmağa çalışırlar. Uğurlu fəaliyyət modeli bütün dünya tərəfindən qəbul olunan görkəmli dövlət xadimi kimi beynəlxalq miqyasda böyük nüfuz qazanan Prezident İlham Əliyev Azərbaycana siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi gətirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşdı. Bütün bunlar ölkəmizin gələcək inkişafının qarantı sayıla bilər. Bu günümüzün daha bir reallığı isə ondan ibarətdir ki, Azərbaycan sürətli inkişaf yolunda inamla irəliləyir, onu qarşıda daha möhtəşəm uğurlar gözləyir.

***Mamed Bağırov***

*Yazı "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün" hazırlanmışdır.*

# Yenə qərəz, yenə böhtan

## “Freedom House” kimi təşkilatlar həmişə Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə edilib

***Hər zaman Azərbaycana qarşı qisasçı yanaşması ilə məşhur olan “Freedom House” təşkilatı “Dünyada Azadlıq - 2019” (Freedom in the World 2019) hesabatında Azərbaycanı “azad olmayan” dövlətlər sırasında göstərib. Bu təşkilatın Azərbaycana qarşı siyasi rıçaq olaraq istifadə edilməsi təcrübəsi fonunda onun bu qiymətləndirməsi o qədər də təəccüblü deyil.***

Sənəddə yazılır ki, siyasi hüquqlar və vətəndaş azadlıqları göstəricilərinə görə, Azərbaycan, Türkiyə, Ukrayna, Gürcüstan geriləyib, Ermənistan isə irəliləyib. İran və Rusiya isə eyni göstəricilərdə qalıb.

Azərbaycana qarşı hər zaman qərəzli və qeyri-obyektiv mövqe nümayiş etdirən bəzi beynəlxalq qeyri-hökumət təşkilatları sırasında “Freedom House” təşkilatı, bir qayda olaraq, ön sırada gedir. Bu təşkilat, ənənəvi olaraq, öz hesabatlarında Azərbaycanla bağlı həqiqəti əks etdirməyən məlumatlara, məqamlara daha çox və geniş yer verir. Bununla da, Azərbaycana qarşı qərəzli mövqe tutan, ölkəmizin dünyadakı artan nüfuzuna və imicinə qısqanc yanaşan, uğurlarımızı, nailiyyətlərimizi gözü götürməyən dairələrin, beynəlxalq təşkilatları mövqeyini ifadə etmiş olur. Həmin qüvvələr isə hər vəchlə Azərbaycan dövlətini dünya birliyinin, beynəlxalq ictimaiyyətin gözündən salmağa, onun nüfuzuna və imicinə zərbə vurmağa çalışanlardır.

Bu gün Ermənistanı bölgədə “azadlıq simvoluna” çevirən “Freedom House” təşkilatının bu ölkədə qurulan “küçə diktaturası”ndan, seçki saxtakarlığından, jurnalistlərin təqibi və qətlə yetirilməsindən xəbərsiz olduğunu düşünmək sadəlövhlük olardı. Bu “Freedom House”un növbəti oyunudur, özü də qərəzli-böhtanlı...

### Siyavuş Novruzov: “Bu hesabat da Azərbaycanı sevməyən qüvvələrin iradəsinin ifadəsidir”

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov açıqlamasında “Freedom House” təşkilatının hesabatının reallıqdan uzaq olduğunu deyib. S.Novruzovun sözlərinə görə, bu qurum illərdir Azərbaycana qarşı bu cür mövqedədir: “Ötən illər ərzində, Azərbaycanda qanunvericilik islahatları aparılıb, müasir dövrün tələblərinə cavab verən qanunvericilik bazası yaradılıb. Amma bu təşkilat, bir dəfə də olsun, bunu qeyd etməyib. Ölkədə hakim korpusunun formalaşması üçün yeni mexnizmin yaradılması, korrupsiya ilə mübarizə sahəsində gözlə görünən naliyyətlərin olmasına baxmayaraq, hər dəfə Azərbaycana qarşı qərəzli münasibət görünür. Bu hesabat da Azərbaycanı sevməyən qüvvələrin iradəsinin ifadəsidir”.

S.Novruzovun sözlərinə görə, “Beynəlxalq insan haqları təşkilatı” adlanan bu qurum qərəzli ənənəsinə sadiq qalaraq, növbəti dəfə Azərbaycanı “azad olmayan” ölkələr sırasına daxil edib. Bunun nə dərəcədə əsassız olduğunu sübut etmək üçün bircə fakta diqqət yetirmək kifayətdir. Belə ki, təşkilat erməni separatçılarının əlində olan Dağlıq Qarabağa, Azərbaycandan fərqli olaraq, “qismən azad” ölkələrin siyahısında yer verib. Sözügedən təşkilatın tanınmamış “Dağlıq Qarabağ” rejimini öz siyahısına salması onun Azərbaycana münasibətinin göstəricisi sayıla bilər. “Freedom House” isə öz hesabatında o qədər ermənipərəst mövqedən çıxış edir ki, Ermənistan kimi bir rejimi də “qismən azad” ölkələr sırasına daxil edir.

### Ölkələri “sevimli” və “düşmən” qruplarına ayıran “Freedom House”

Millət vəkili, politoloq Elman Nəsirli bildirdi ki, “Freedom House” təşkilatının hesabatları, xüsusilə, Azərbaycanla bağlı hissəsi hər zaman qərəzli, qeyri-obyektiv olması ilə diqqəti cəlb edib: “Bu, bir daha onu göstərir ki, belə hesabatlar siyasi sifariş əsasında hazırlanır. Əslində, bu, yeni hadisə deyil və biz buna təəccüblənmirik. Biz ona təəccüblənərdik ki, “Freedom House” təşkilatı hesabatında Azərbaycanla bağlı obyektiv olardı və həqiqəti əks etdirərdi. Məqsəd isə Azərbaycan əhalisinə psixoloji baxımdan təsir göstərmək və elə etməkdir ki, ölkəmizdə, müəyyən mənada, vətəndaş itaətsizliyi yaratsınlar, səfərbər olunmuş cəmiyyəti pozsunlar və sabitliyin əsasını dağıtsınlar. Belə hesabatların məqsədi, məhz bundan ibarətdir”.

E.Nəsirli onu da vurğulayıb ki, necə obyektivdirlər ki, Ermənistan kimi bir dövlətlə bağlı fərqli yanaşma ortaya qoyurlar, bu ölkəni demokratik dövlət imicində görmək istəyirlər: “Axı Ermənistan necə demokratik dövlət ola bilər ki, bu ölkədə 20 il ərzində despotik rejim mövcud imiş və axırda da o, inqilabla nəticələndi? Son seçkilər də göstərdi ki, vaxtilə beynəlxalq təşkilatların, o cümlədən, “Freedom House”un müdafiə etdiyi Ermənistandakı rejimin heç sosial bazası yox imiş, antidemokratik imiş və erməni xalqına zülm edirmiş. Məhz bu təşkilat həmin despotik rejim hakimiyyətdə olanda belə, Ermənistanı demokratik ölkə kimi görürdü.

Beləliklə, “Freedom House”un Azərbaycana verdiyi qiymətdən asılı olmayaraq, ölkəmiz özünün müstəqil daxili və xarici siyasətini yeridir, insan haqlarının, demokratiyanın qorunmasını özünün vəzifəsi sayır, iqtisadiyyatını gücləndirir, eləcə də, ərazi bütövlüyü məsələsini təmin etmək üçün daima fəaliyyətdədir. Ancaq bu kimi təşkilatların Azərbaycana hər hansı bir təzyiq göstərmək şansları sıfıra bərabərdir. İndiyə qədər bu cür təzyiqləri çox görmüşük və bundan sonra da görəcəyik.

***Rəfiqə HÜSEYNOVA***

# Meydan və çayxana müxalifətçiliyindən şeytan müxalifətçiliyinə



Artıq 26 ilə yaxındır ki, özləri arasında belə, “ana müxalifət” məsələsini həll edə bilməyən dağıdıcı müxalifət düşərgəsinin təmsilçiləri sözdə “demokratiya”, “plüralizm” və s. bu kimi pafoslar üzərində ölkənin siyasi arenasında sürünməkdə davam edirlər. Meydan və çayxana müxalifəti kimi də tanınan AXCP, Müsavat və s. kimi bənzər partiyaların kökündə dayanan əsas uğursuzluqlardan biri də, əlbəttə ki, öz aralarındakı ziddiyyətlər, qarşıdurmalar və savaşlardır. Maraqlıdır ki, öz aralarındakı savaşları nəzərə almadan, bir-birlərinə qarşı qənim, düşmən kəsilmələrinə rəğmən, hələ də, hakimiyyətə iddialı olduqlarını bəyan edən “liderlər” ümid edirlər ki, xalq bunların siyasi baxışlarına dəstək verəcək və bu yolla iqtidara yiyələnəcəklər və s. Bunun belə olmadığını elə özləri də yaxşı bilir və yaxşı anlayırlar. Anlayırlar ki, artıq bunların zamanları tükənib və siyasi ölümün yaxasından qurtulmağa müyəssər olmayacaqlar.

Görünür, bu səbəbdən, meydan və çayxana müxalifətçiliyini, necə deyərlər, daha “proqressiv” müxalifətçiliklə əvəzləyib, istəklərinə nail olacaqlarına inanırlar, yaxud özlərini növbəti xam xəyallarına inandırmağa çalışırlar. Artıq informasiya texnologiyalarının, sosial medianın inkişaf etdiyi bir dövrdən öz çirkin məqsədləri üçün yararlanmağa çalışan meydan və çayxana müxalifəti dönüb olub söyüş müxalifəti - buna həm də şeytançılıq müxalifəti də deyirlər. Siyasi mübarizə adı altında guya üslublarını dəyişdiklərini, belə bir biabırçı “yenilikl ə” gündəmdə qalacaqlarını düşünənlər yenidən sübut edirlər ki, əslində, heç nə dəyişilməyib - ya olsun çayxana müxalifətçiliyi, ya da şeytançılıq, yeni söyüş müxalifətçiliyi. Bu kimi “siyasi mübarizə üsullarının” hər ikisi, el dili ilə deyərsək, eyni bezin qıraqlarıdır.

Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyası İcra katibi - Sədr müavini, Baş nazirin müavini Əli Əhmədovun bu günlərdə mediaya açıqladığı münasibətində də bu kimi məsələlərə toxunulub və vurğulanıb ki, Azərbaycanda özünü müxalifət hesab edən bəzi partiyaların fəaliyyəti ötən əsrin 90-cı illərinin əvvəllərinin, başıpozuqluq dövrünün qalıqları şəklində təzahür edir. Azərbaycanda bütün sahələrdə köklü dəyişikliklərin, inkişafın və tərəqqinin olduğu bir halda, dəyişilməyən, məhz müxalifətin olduğunu deyən Əli Əhmədov bildirib ki, həyatda baş verən yeniliklər istər-istəməz düşüncələrdə, təsəvvürlərdə öz əksini tapır: “Amma bir şey Azərbaycanda dəyişməyib: bu da ölkəmizdəki özünü müxalifət hesab edən bəzi partiyalardır. Ona görə biz onları öz simalarına uyğun, haqlı olaraq, qaragüruhçu adlandırmaq zorundayıq. 90-cı illərin əvvəllərinin başıpozuqluq dövründə formalaşmış həmin müxalifət o vaxt necə qaragüruhçu idisə, indi də elədir, bu günə qədər dəyişməyiblər”.

Onun sözlərinə görə, Azərbaycanın inkişafı, yüksəlişi, insanların rifahının yaxşılaşmasını onlar pis qarşılayan sözdə müxalifət, arzulayır ki, Azərbaycan inkişaf etməsin, insanların sosial rifahı aşağı olsun və yaranan çətinliklərdən öz çirkin məqsədləri üçün istifadə etsinlər: “Onların davranışlarının Azərbaycanın ümumi demokratik ab-havasına uyğun gəlməməsinin kökündə dayanan budur. Lakin belə müxalifət yeni əhvali-ruhiyyə şəraitində yaşayan bir cəmiyyətlə ahəngdarlıq təşkil edə bilməz. Onlar getdikcə daha da marginallaşıb və simalarını itiriblər. Ona görə çıxış yolunu cəmiyyətdə gərginlik yaratmaqda görürlər. Aydın şəkildə dərk edirlər ki, təhlükəsizliyin, əmin-amanlığın, iqtisadi inkişafın, rifahın yüksəlişi fonunda özlərinin bu şəraitə uyğun gəlməyən platformaları ilə insanları öz tərəflərinə çəkmək iqtidarında deyillər! Bu, onlar üçün vahimədir. Vəziyyətdən çıxış yolunu cəmiyyəti gərginləşdirməkdə və qarşıdurma yaratmaqda görürlər. Bunun üçün keçirdikləri mitinqlərdən faydalanmağa çalışırlar”.

Beləliklə, sosial şəbəkələrdən maksimum şəkildə yararlanaraq, guya siyasi mübarizə aparan radikal müxalifətin tərzi elə eyni tərzdir və bu, bir daha sübut edir ki, onların meydan, küçə, çayxana müxalifətçilikləri “inkişaf edərək” klaviatura arxasında da davam etdirilir. Lakin fakt budur ki, heç bir vasitə onların dadına çatmır və bundan sonra da çatmayacaq. Çünki ortada şeytançılıq var və şeytan hər zaman haqq-ədalət qarşısında məğlub duruma düşür.

***Rövşən RƏSULOV***

# GENDER BƏRABƏRLİYİNDƏ YENİ MƏRHƏLƏ

***Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində ölkəmizə rəhbərlik edən şəxslər 1993-cü ilin iyun ayına qədər, faktiki olaraq, gender bərabərliyi istiqamətində hər hansı bir addım atmamışdılar. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra isə, cəmiyyət həyatının digər sahələrində olduğu kimi, gender siyasətində də böyük dəyişikliklər, irəliləyişlər və tərəqqi əldə edildi. Ulu Öndərin titanik siyasi fəaliyyəti gender problemlərinin həllinə böyük təkan verdi. Qadınlarımızın ictimai-siyasi həyata qayıdışı, yəni onların dövlət idarəçiliyində təmsil olunması, bütün sahələrdə kişilərlə bərabər hüquqa malik olması dövlət-idarəetmə kursunun prioritet istiqamətinə çevrildi.***

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövr qadınların qarşısında, təbii ki, yeni məqsəd və vəzifələr qoyurdu. Bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizdə müxtəlif sahələrdə aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəaliyyətinin artırılması yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun artırılmasını tələb edirdi.

1993-cü ilin yayından etibarən Heydər Əliyev Azərbaycan qadınının cəmiyyətdəki fəallığının artırılması üçün, Sovet dövründən də daha mükəmməl və daha möhtəşəm addımlar atdı. Çünki O, indi artıq müstəqil dövlətin rəhbəri kimi xalqı və dövləti üçün istənilən xidməti göstərməkdə tam sərbəst idi. Ona görə də, bu istiqamətdə atılan addımlar daha əhatəli və daha səmərəli olurdu. 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk Konstitusiyamızda gender məsələləri geniş əksini tapdı. Ulu Öndərin şəxsi iştirakı ilə işlənib-hazırlanmış Əsas Qanunumuzun "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan ikinci bölməsinin müvafiq maddəsində yazılır ki, ölkədə kişi ilə qadının eyni hüquq və azadlıqları vardır. Həmin ildən başlayaraq respublikamızda qadın problemləri yeni bir təşkilatlanma xarakteri almağa başladı. 1995-ci il Azərbaycan qadınları üçün başqa bir cəhətdən də əlamətdar oldu. Belə ki, ölkəmiz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına qoşuldu. Həmin ilin avqustunda isə dövlət başçısı beynəlxalq səviyyədə keçirilən müvafiq konfranslarda azərbaycanlı qadınların yüksək səviyyədə təmsil edilməsinə zəmin yaradan Milli Hazırlıq Komitəsinin formalaşdırılması üçün Sərəncam imzaladı. Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılarkən də, məhz Milli Hazırlıq Komitəsinin bazası əsas götürülmüşdü.

Bu məqamda, onu da deyək ki, bu gün beynəlxalq aləmdə də gender və qadın məsələlərinə çox ciddi diqqət yetirilir. Azərbaycan dövləti bu istiqamətdə beynəlxalq təcrübə ilə yaxından tanış olmuş, yuxarıda qeyd etdiyimiz kimi, respublikamız qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı Konvensiyaya üzv olmuşdur. Dörd ildən bir Azərbaycanın əlaqədar qurumu BMT-nin müvafiq komitəsi qarşısında hesabat verir. Təsadüfi deyil ki, artıq BMT kimi nüfuzlu bir beynəlxalq təşkilatın tanınmış simaları Azərbaycanda qadınlarla bağlı həyata keçirilən siyasəti digər ölkələrə nümunə göstərirlər.

Heydər Əliyevin yeritdiyi gender siyasətinin əsas nəticələrindən biri də 1998-ci ildə Azərbaycanda keçirilmiş qadınların I qurultayı idi. Heydər Əliyev qurultaydakı tarixi nitqində söyləmişdir ki, bu qurultay başa çatmaqda olan əsrdə Azərbaycanın tarixində ən böyük hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda demokratik cəmiyyətin və qadın hərəkatının əsasını qoydular.

Qadınlar cəmiyyətimizdə gedən demokratikləşmə proseslərindən istifadə edərək, qısa bir müddətdə, yeni dövrün tələblərinə uyğun qadın təşkilatları yaratdılar. Ümummilli miqyasda fəaliyyət göstərən qadın təşkilatları öz əsas məqsədi kimi Azərbaycanda qadının vəziyyətinin yaxşılaşdırılmasını, onun sosial-iqtisadi problemlərinin həllini və s. məsələləri əsas götürmüş oldular. Yeni-yeni qadın təşkilatları formalaşdırıldı, mövcud təşkilatlar isə, öz şəbəkəsini və fəaliyyət dairəsini genişləndirdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı ilk illər sübut etdi ki, ölkədə qadın siyasətinin daha yetkin və daha dolğun şəkildə təşkil edilməsi üçün tələbat yaranmışdır.

Məhz həmin tələbatı əsas götürən Ulu Öndər 2000-ci il mart ayının 6-da "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzaladı. Fərmanın birinci bəndində göstərilirdi ki, Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla, qadınların, rəhbərlik səviyyəsində, kişilərlə bərabər təmsil olunması təmin edilməlidir. Bu, XX əsrin son ilində imzalanmış çox mütərəqqi bir Fərman idi.

1995-ci ildə Böyük Öndərin tövsiyəsi ilə YAP-ın tərkibində qadın şuralarının yaradılması bizim milli mentalitetimizə uyğun bir hadisə idi. Qədim mənəvi dəyərlərdən cəmiyyətimizi sağlamlaşdırmaq və möhkəmləndirmək üçün istifadə etmək təşəbbüsü idi. Yaşadığı zamanın və məkanın xarakterindən asılı olmayaraq, qərinələr boyu əxz etdiyi milli-mənəvi dəyərləri, mental xüsusiyyətləri qoruyub-saxlayan, taleyini, gələcəyini inandığı, etimad bəslədiyi siyasi qüvvəyə etibar edən Azərbaycan qadınlarının qabaqcıl hissəsi bu təşəbbüsü, nəinki bəyəndi, hətta şüurlu surətdə ona qoşulmaq və onun fəaliyyətində iştirak etmək qərarına gəldi. 1993-1996-cı illərdə Yeni Azərbaycan Partiyasının sıralarına minlərlə qadın daxil oldu. Bu gün möhtəşəm YAP ordusunun 43,5 faizini qadınlar təşkil edir. Onlar təhsil və səhiyyə, mədəniyyət və incəsənət işçiləri, alimlər, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlər, təqaüdçülər, evdar qadınlar, ali və orta ixtisas məktəblərinin tələbələri, kənd təsərrüfatında və istehsal sahələrində işləyən qadınlardan ibarətdir.

Bu insanları Heydər Əliyev partiyasının sıralarına öz əqidələri, müstəqil dövlətimizi möhkəmləndirməkdə, sosialyönümlü siyasət yeritməkdə Ona köməkçi olmaq istəkləri gətirmişdir.

Bu istəklər təsadüfi deyildir. Azərbaycan qadınını mütəşəkkil bir qüvvə kimi səfərbər edib ümumxalq mübarizəsinə ruhlandırmaqda, onu böyük cahanşümul işlərə qoşmaqda, cəmiyyətdə və dövlətdə ona layiq olduğu yeri təmin etməkdə, biz hər kəsdən əvvəl siyasi miqyas və nüfuzuna görə, heç bir dövlət rəhbəri ilə müqayisəyə gəlməyən böyük hakimiyyət ustadı Milli Öndərə borcluyuq. Son illərdə qadınların dövlət qurumlarında və ümumiyyətlə, ictimai-siyasi həyatda təmsil olunmaq imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsi Ulu Öndərimizin əsasını qoyduğu liberal gender siyasəti nəticəsində mümkün olmuşdur.

Ulu Öndərin yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlət-qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin etdi. Onun rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atdı. 2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün Prezident İlham Əliyev tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Bu qurum qeyd olunan istiqamətlərdə aparılan məqsədyönlü işlərin sürətlə həyata keçirilməsində müstəsna rol oynayır.

Birmənalı şəkildə, demək olar ki, bu gün Azərbaycanda gender bərabərliyinin təminatına dövlət qayğısı yüksək səviyyədədir. 2006-cı ildə Azərbaycanın qanunverici orqanında gender bərabərliyi haqqında qanun qəbul olunmuşdur. 2010-cu ildə isə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul edilmişdir. Gender bərabərliyi, bilavasitə cəmiyyətdə kişi və qadın bərabərliyinin təmin olunmasına xidmət edirsə, məişət zorakılığı ilə bağlı qanun müəyyən stereotiplərin qarşısının alınmasında əhəmiyyətli rola malikdir. Həmin qanunların təsdiqi, onların həyata keçirilməsi cəmiyyətdə mövcud olan stereotiplərin aradan qalxmasına böyük imkanlar yaradır. Dördüncü hakimiyyət hesab olunan kütləvi informasiya vasitələri də, bu sahədə böyük rol oynayır. Bütün demokratik cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da KİV ailə və qadın problemlərinin həllində yaxından iştirak edən mühüm vasitədir. Televiziya və radioların efirində, mətbuat orqanlarında gedən materialların səthi monitorinqi göstərir ki, bu mövzu milli informasiya məkanımız üçün əsas prioritetlərdəndir. Cəmiyyətdə öz nüfuzu və çəkisi ilə tanınan ictimaiyyət nümayəndələri qadın hüquqları ilə bağlı aktual məsələlərə dair öz fikirlərini çatdırmaq imkanına malikdirlər. Eyni zamanda, gender probleminə həsr olunmuş və dövlət, beynəlxalq, yerli təşkilatlar səviyyəsində həyata keçirilən layihələr və onların nəticələri daim işıqlandırılır. KİV də müstəqil şəkildə gender problemlərinə həsr olunmuş maarifləndirmə xarakterli layihələr həyata keçirir. Bunlar da cəmiyyətimiz üçün böyük faydalılıq əmsalına malikdir.

Nəzərə almaq lazımdır ki, qadın ictimai işlə məşğul olmaqla yanaşı, anadır, övladlarını həm tərbiyə, həm də cəmiyyətə təqdim edən valideyndir. O baxımdan, qadının fəaliyyət göstərdiyi ictimai sahə ilə, ana olaraq, üzərinə düşən məsuliyyət paralel şəkildə inkişaf etdirilməlidir, onlar bir-birinə mane olmamalı, əksinə, kömək etməlidir. Bu səbəbdəndir ki, Azərbaycanda qadınların ictimai fəaliyyətlə məşğul ola bilməsi üçün ailə problemlərinin yaranmaması istiqamətində mühüm siyasət aparılır. Dövlətimizin əlaqədar qurumları regionlarımızda bu istiqamətlərdə maarifləndirici proqramlar və əhəmiyyətli tədbirlər həyata keçirir.

Azərbaycan qadını ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayır. Keçirilən seçkilərdə ölkə parlamentinə və bələdiyyələrə seçilən qadınların sayı getdikcə artır. Bütün bunlar qadınların ictimai fəaliyyətə marağının artmasının göstəricisidir. Sevindirici haldır ki, artıq qadınlarımız öz yaşadıqları kəndlərdə müəllim, həkim və ya hər hansı bir işdə işləməklə yanaşı, bələdiyyələrdə təmsil olunmağa da maraq göstərirlər. Onların bələdiyyələrdə təmsilçiliyi olduqca vacib məsələdir. Bu gün əgər biz kəndlərdə qızlarımızın erkən nikah problemindən və ya kənddə yaşayan qadınların ortaya çıxan problemlərindən, o cümlədən, kəndlərdəki sosial problemlərdən danışırıqsa, sözügedən çatışmazlıqların aradan qaldırılmasında həmin qadınların böyük rolu ola bilər.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Türkiyənin tanınmış aktyoru dünyasını dəyişib



Türkiyənin tanınmış aktyoru Yalçın Menteş 59 yaşında vəfat edib. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, aktyor uzun müddətdir şəkər və xərçəng xəstəliyindən əziyyət çəkirdi. Qeyd edək ki, Y.Menteş 1960-cı ildə İzmirdə anadan olub. O, "Tatlı Kaçıklar", "Yalançı Yarim", "Cənnət məhəlləsi", "Yalançı romantik", "Akasya durağı", "Doxsanlar" və bir çox ekran əsərində rol alıb.

# Avropada qızılcaya yoluxma halları üç dəfə artıb



Avropa məkanında ötən il qızılca epidemiyasına yoluxanların sayı üç dəfə artıb. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı mərkəzi qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən Dünya Səhiyyə Təşkilatının (DST) Avropa bürosu yayıb. Təşkilata görə, ötən il xəstəliyə yoluxanların sayı son on ildə bu xəstəliyə yoluxanların ümumi sayına bərabər olub. Epidemiyanın ən aşağı həddə olduğu 2016-cı illə müqayisədə ötən il yoluxma hallarının sayı 15 dəfə artıb. 2018-ci ildə Avropa regionunda yerləşən 53 ölkə üzrə 82600 nəfərin qızılcaya yoluxması rəsmi qeydiyyata alınıb, 72 uşaq və böyük isə bu xəstəlik nəticəsində vəfat edib.

Büronun məlumatında qeyd edilir ki, Avropa məkanında epidemiyanın ən böyük zərbə vurduğu ölkə Ukraynadır (53 min hal). Sonrakı yerlərdə Serbiya (5076), İsrail (2919), Fransa (2913), Rusiya (2256), İtaliya (2517), Gürcüstan (2203) və Yunanıstan (2193) dayanır. Regional büronun rəhbəri Suzanna Yakab bildirib ki, ötən il qızılcaya qarşı peyvəndetmədə də rekord müəyyən edilsə də, bu, hələ də yetərli sayıla bilməz. Asanlıqla dəf edilə bilən epidemiyaya qarşı əhalidə maarifləndirmə işləri gücləndirilməli və onların peyvəndə qarşı tərəddüdləri aradan qaldırılmalıdır. Qeyd edək ki, DST bu infeksiyanın bütün dünyada ləğv edilməsini prioritet istiqamətlərdən biri kimi elan edib.


## ELAN

Azərbaycan Dövlət Dəniz Akademiyası tərəfindən 2013-cü ildə Rəşidbəyli Möhlüd Firudin oğluna Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi ixtisası üzrə verilmiş bakalavr diplomu (A№020590) itdiyi üçün etibarsız sayılır.

* * *

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar Ümumi Yığıncağının çağırılması haqqında məlumat.

Bank "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar Ümumi Yığıncağı 13.03.2019-ci il tarixdə saat 12:00-da Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən şirkətin ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə şirkətin ofisində tanış ola bilərlər.


## BAŞSAĞLIĞI

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev kollektivi adından "Azərbaycan" Nəşriyyatının Baş direktoru, YAP Siyasi Şurasının üzvü Ağabəy Əsgərova bacısı

**Pərixanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**



# Aleksandr Çeferin: "ÇL-dən ayrılan klublar azarkeşlərin gözündən düşəcək"

Xəbər verdiyimiz kimi, dünən İtaliyanın paytaxtı Romada UEFA prezidentliyinə seçkilər keçirilib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, yeganə namizəd olan Aleksandr Çeferin yenidən 4 il müddətinə UEFA-ya rəhbərlik etmək hüququ qazanıb.




Maraqlıdır ki, seçkilərdən sonrakı ilk çıxışında köhnə-yeni UEFA prezidenti Çempionlar Liqasından ayrılmaq niyyəti olan klubları hədələyib: "Nə qədər ki, mən burdayam Super Liqa və ya hansısa alternativ turnir keçirilməyəcək. Çempionlar Liqasından ayrılan klublar azarkeşlərin gözündən düşəcək, böyük klub adını itirəcəklər. Çünki onların böyüklüyü keçmişləridir. Həmin keçmiş isə Çempionlar Liqası ilə bağlıdır".




# Güləşçilərimiz "Təxti kuboku"nda 6 medal qazanıblar

Fevralın 8-də İranın Kirmanşah şəhərində sərbəst güləş üzrə "Təxti kuboku" turnirinə yekun vurulub. Ənənəvi yarışda 10 ölkədən - İran, Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan, Macarıstan, Hollandiya, Belarus, Qırğızıstan və Gürcüstandan olan pəhləvanlar mübarizə aparıblar. SİA-nın məlumatına görə, ilk yarış günündə baş məşqçi Saypulla Absaidov, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında mübarizə aparan millimizin 4 üzvü - Əhmədnəbi Qvarzatilov (61 kq), Hacımurad Hacıyev (74 kq), Cəbrayıl Həsənov (79 kq) və Nurməhəmməd Hacıyev (97 kq) finala vəsiqə qazanıblar.

İkinci yarış günündə həlledici qarşılaşmalar keçirilib. Ə.Qvarzatilov finalda Uluqbəy Yoldaşbəyova (Qırğızıstan), C.Həsənov Bəhmən Teymuriyə (İran) məğlub olaraq gümüş medalla kifayətlənib. N.Hacıyev isə zədələndiyi üçün Əli Rzayi Qudarzi (İran) ilə həlledici görüşə çıxmayıb. Ancaq H.Hacıyev Rza Əfzəli (İran) üzərindəki qələbə ilə himnimizi Kirmanşahda səsləndirib. Mircəlal Həsənzadə (61 kq) və Şərif Şərifov (92 kq) bürünc medal qazanıblar. Beləliklə, komandamız 2019-cu ildə çıxdığı ilk turnirdə 1 qızıl, 3 gümüş və 2 bürünc medal əldə edib.

# Açıq Avropa kubokunda Azərbaycanın on cüdoçusu mübarizə aparacaq



Fevralın 16-da İtaliyanın paytaxtı Romada cüdo üzrə kişilər arasında açıq Avropa kuboku start götürəcək. AZƏRTAC xəbər verir ki, 49 ölkədən 311 idmançının mübarizə aparacağı turnirdə Azərbaycanı 10 cüdoçu təmsil edəcək. Turnirdə Oruc Vəlizadə, Davud Məmmədsoy, Rövşən Əliyev (60 kq), Tərlan Kərimov, İbrahim Əliyev (66 kq), Fəqan Quluzadə, Afiq Səfərli (81 kq), Qurban Qurbanov (90 kq), Sənan Əhmədov (100 kq), Ayxan Cəfərov (+100 kq) qüvvələrini sınayacaqlar. Turnirə fevralın 17-də yekun vurulacaq.

# Qadın cüdoçularımız Avstriyada Avropa kuboku yarışlarında mübarizə aparacaqlar



Fevralın 16-da Avstriyanın Overvart şəhərində qadın cüdoçular arasında Avropa kuboku yarışları start götürəcək. Azərbaycanı yarışda dörd tatami ustası təmsil edəcək. Qitə kubokunda cüdoçularımız Şəfəq Həmidova (48 kq), Alexandra-Larisa Florian (52 kq), Nuriyyə Axundova (63 kq) və Günel Həsənli (70 kq) medallar uğrunda mübarizə aparacaqlar. Turnirdə 35 ölkədən 209 idmançı mübarizə aparacaq.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**